

*Gün gələcək*
*Azərbaycan dünyaya günəş kimi doğacaq.*


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

3 SENTYABR 2019-cu il ÇƏRŞƏNBƏ AXŞAMI № 191 (6518) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ


## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanında, "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" 2004-cü il 21 aprel tarixli 196 nömrəli, "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2009-cu il 6 avqust tarixli 429 nömrəli, "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" 2016-cı il 19 fevral tarixli 1792 nömrəli və "2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" 2016-cı il 9 sentyabr tarixli 2331 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamənin təsdiq edilməsi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiyasının tərkibi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 9 dekabr tarixli 224 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 12, maddə 704; 2002, N 1, maddə 22; 2004, N 6, maddə 436, N 7, maddə 534; 2005, N 10, maddə 910; 2006, N 7, maddə 588; 2007, N 3, maddə 229; 2014, N 9, maddə 1027; 2015, N 9, maddə 1015, N 11, maddə 1301; 2016, N 8, maddə 1384; 2017, N 5, maddə 772, N 8, maddə 1521; 2018, N 2, maddə 175) 2-ci hissəsi ilə təsdiq edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

### "Komissiyanın sədri

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

### Komissiyanın üzvləri

Azərbaycan Respublikasının müdafiə naziri
Azərbaycan Respublikasının ədliyyə naziri
Azərbaycan Respublikasının xarici işlər naziri
Azərbaycan Respublikasının iqtisadiyyat naziri
Azərbaycan Respublikasının maliyyə naziri
Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri
Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikasının müdafiə sənayesi naziri
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisi
Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti".

**2.** "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 aprel tarixli 196 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 4, maddə 277; 2005, N 6, maddə 524; 2008, N 1, maddə 9; 2015, N 11, maddə 1301; 2017, N 1, maddə 51; 2018, N 6, maddə 1297) ilə təyin edilmiş Komissiyanın tərkibi aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri
Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi şöbə müdiri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq ekspertizası məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikasının daxili işlər naziri
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi".

**3.** "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 8, maddə 637; 2011, N 12, maddə 1161; 2013, N 6, maddə 703, N 9, maddə 1088; 2014, N 4, maddə 404, N 7, maddə 864; 2016, N 4, maddələr 738, 750; 2018, N 1, maddə 99) 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Komissiyasının tərkibi aşağıdakı redaksiyada verilsin:

### "Komissiyanın sədri

Azərbaycan Respublikası Baş nazirinin müavini

### Komissiya sədrinin müavini

Azərbaycan Respublikasının daxili işlər naziri

### Komissiyanın üzvləri

Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri
Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət komitəsinin sədri
Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri
Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini
Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası səhiyyə nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini
Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini
Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti rəisinin müavini
Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini
Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti
Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədri
Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri
Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası sədrinin müavini
Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti".

**4.** "Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 19 fevral tarixli 1792 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 312; 2018, N 6, maddə 1297) 1-ci hissəsində "Ramil Usubov" sözləri "Vilayət Eyvazov" sözləri ilə, "Mədət Quliyev" sözləri "Əli Nağıyev" sözləri ilə əvəz edilsin.

**5.** "2020-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 9 sentyabr tarixli 2331 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 9, maddə 1526; 2017, N 8, maddə 1521; 2018, N 5, maddə 1065) 1-ci hissəsində "Ramil Usubov" sözləri "Vilayət Eyvazov" sözləri ilə, "Mədət Quliyev" sözləri "Əli Nağıyev" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 2 sentyabr 2019-cu il.**

## "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 7, maddə 599; 2010, N 4, maddə 276, N 10, maddə 841; 2013, N 11, maddə 1302; 2014, N 4, maddə 342; 2015, N 8, maddə 903, N 12, maddə 1439; 2016, N 2 (II kitab), maddə 221; 2017, N 2, maddə 140, N 12 (I kitab), maddə 2211; 2018, N 1, maddə 22, N 12 (I kitab), maddələr 2510, 2517; 2019, N 3, maddə 374) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.0.9-1-1.0.9-2-ci maddələr əlavə edilsin:

"1.0.9-1. avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımaları fəaliyyətinin operatoru (bundan sonra - operator) - avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən, işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, habelə sürücüsü (sürücüləri) hazırlıq səviyyəsinə dair tələblərə cavab verən, müvafiq icra hakimiyyəti orqanı tərəfindən uçota alınan hüquqi və ya fiziki şəxs;

1.0.9-2. operatorun məsul şəxsi - operatorun nəqliyyat fəaliyyətini faktiki və davamlı şəkildə müqavilə əsasında idarə edən, eləcə də peşəkarlıq səriştəsi ilə bağlı meyarlara cavab verən fiziki şəxs;".

**2.** 50.1-ci maddəyə "uyğun olaraq" sözlərindən sonra "operator tərəfindən" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Operator işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlara, operatorun sürücüsü (sürücüləri) isə hazırlıq səviyyəsinə dair tələblərə cavab verməlidir.".

**3.** 50.4-cü maddədə "daşıyıcılar" sözü "daşıyıcıları" sözü ilə əvəz edilsin.

**4.** 50.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

"50.5. Operatorun məsul şəxsi (şəxsləri), habelə beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülər müvafiq icra hakimiyyəti orqanı tərəfindən peşəkarlıq səriştəsinə dair təsdiq olunmuş proqram üzrə hazırlıq və yenidən hazırlıq keçməlidir. Hazırlığın keçirilməsi qaydası və müddəti müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Hazırlıq müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil edilir və keçirilir. Tədrisin nəticələrinə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş sənəd verilir.".

**5.** Aşağıdakı məzmunda 50.6-cı maddə əlavə edilsin:

"50.6. Operatorun işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarlar, sürücülərin hazırlıq səviyyəsinə dair tələblər, habelə operatorların uçotunun aparılması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən avtomobil nəqliyyatı ilə beynəlxalq sərnişin və yük daşımalarına buraxılış qaydaları ilə müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 12 iyul 2019-cu il.**

## "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1657-VQD nömrəli Qanununun tətbiqi və "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1657-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 50.6-cı maddəsinə uyğun olaraq, operatorun işgüzar nüfuz, maliyyə vəziyyəti və peşəkarlıq səriştəsi ilə bağlı meyarları, sürücülərin hazırlıq səviyyəsinə dair tələbləri, habelə operatorların uçotunun aparılması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla bir ay müddətində təsdiq etsin;

*1.3.* həmin Qanunun 50.5-ci maddəsinin birinci və ikinci cümlələrinə uyğun olaraq, beynəlxalq sərnişin və yük daşımalarını həyata keçirən sürücülərin peşəkarlıq səriştəsinə dair proqramı, həmçinin həmin sürücülər üçün hazırlığın keçirilməsi qaydasını və müddətini üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanunun 50.5-ci maddəsinin dördüncü cümləsinə uyğun olaraq, tədrisin nəticələrinə əsasən operatorun məsul şəxsinə və ya sürücüyə veriləcək sənədin formasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.6.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.7.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

*3.1.* "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 50.5-ci maddəsinin birinci, ikinci və dördüncü cümlələrində, 50.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

*3.2.* həmin Qanunun 1.0.9-1-ci maddəsində və 50.5-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi həyata keçirir.

**4.** "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 7, maddə 610; 2009, N 10, maddə 779; 2016, N 4, maddə 661, N 6, maddə 1064, N 11, maddə 1840; 2017, N 6, maddə 1083; 2018, N 12 (I kitab), maddə 2600; 2019, N 5, maddə 838) aşağıdakı dəyişikliklər edilsin:

*4.1.* 2.1-1-ci bənddə "və 48.2-ci maddəsində" sözləri ", 48.2-ci maddəsində, 50.5-ci maddəsinin birinci, ikinci və dördüncü cümlələrində və 50.6-cı maddəsində" sözləri ilə əvəz edilsin;

*4.2.* 2.2-ci bəndə "Qanunun" sözündən sonra "1.0.9-1-ci," sözləri və "50.5-ci" sözlərindən sonra "(üçüncü cümləsində)" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 28 avqust 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin sentyabr ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**12 sentyabr 2019-cu il**

1. Quba rayonu
2. Cəlilabad rayonu
3. Qəbələ rayonu
4. Beyləqan rayonu
5. Cəbrayıl rayonu

**26 sentyabr 2019-cu il**

1. Mingəçevir şəhəri
2. Ağdaş rayonu
3. Hacıqabul rayonu
4. Kürdəmir rayonu
5. Qazax rayonu

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374** **Bakı şəhəri, 29 avqust 2019-cu il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası üzvlərinin Siyahısı"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 3 mart tarixli 93 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol Hərəkəti Təhlükəsizliyi Komissiyası Üzvlərinin Siyahısı" aşağıdakı redaksiyada verilsin:

**"Komissiyanın sədri**

Azərbaycan Respublikası Baş Nazirinin müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin rəisi

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Fövqəladə Hallar nazirinin birinci müavini

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini

Azərbaycan Respublikası Səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Təhsil nazirinin müavini

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin yol-nəqliyyat hadisələrinin ekspertizaları şöbəsinin rəisi

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Texniki Universitetinin nəqliyyatda daşımalar və yol hərəkətinin təşkili kafedrasının müdiri

Bakı Şəhər İcra Hakimiyyətinin şəhər təsərrüfatı şöbəsinin müdiri

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Baş Dövlət Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə şöbəsinin inspektoru, Komissiyanın məsul katibi.".

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 375** **Bakı şəhəri, 30 avqust 2019-cu il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 2 (II kitab), maddə 380; 2017, N 4, maddə 672, N 5, maddə 1010, N 10, maddə 1918; 2018, N 11, maddə 2432, N 12 (II kitab), maddə 2741; 2019, N 4, maddələr 735, 762) ilə təsdiq edilmiş "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. Bu Qayda Azərbaycan Respublikasının elmi müəssisə və təşkilatlarında, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində əyani formada təhsil alan Azərbaycan Respublikasının vətəndaşlarına və Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərə şamil edilir. Dövlət tərəfindən müəyyən edilmiş təhsil qrantı proqramları çərçivəsində təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslərə təqaüdlərin təyin olunması və ödənilməsi həmin təhsil qrantlarının verilməsi qaydaları ilə tənzimlənir. Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində başqa qayda nəzərdə tutulmadıqda, həmin müqavilələrə əsasən təhsil alan əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün təqaüdlər onların faktiki sayına bərabər miqdarda təyin olunur və bu Qaydaya (1.9-cu, 2.4-2.5-ci, 2.7-2.15-ci bəndlər istisna olmaqla) uyğun olaraq ödənilir.";

1.2. 2.4-1-ci bəndin ikinci abzasının üçüncü cümləsi aşağıdakı redaksiyada verilsin:

"Ali təhsil müəssisəsində əlavə təqaüd yerlərinin ixtisaslar üzrə bölgüsü hər bir ixtisas üzrə ödənişli əsaslarla qəbul olunmuş təhsilalanların sayının həmin ali təhsil müəssisəsinə ödənişli əsaslarla qəbul olunmuş təhsilalanların ümumi sayında xüsusi çəkisinə uyğun aparılır.".

**2.** Bu Qərarın 1.2-ci bəndi 2019-cu il 1 iyul tarixindən tətbiq edilir.

**Novruz MƏMMƏDOV,**
**Azərbaycan Respublikasının Baş Naziri.**

# Daxili Qoşunların Qəbələdə yerləşən hərbi hissəsinin zabit və gizirləri üçün yaşayış binası istifadəyə verilib






**Daxili İşlər Nazirliyinin (DİN) Daxili Qoşunlarının Qəbələ rayonu ərazisində yerləşən "N" saylı hərbi hissəsinin zabit və gizirləri üçün əsaslı təmir edilmiş yaşayış binasının istifadəyə verilməsinə həsr olunmuş mərasim keçirilib.**

DİN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə iştirak edən Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov yeni binada mənzillə təmin olunmuş sakinlər qarşısında çıxış edərək onları təbrik edib, yeni mənzillərində xoşbəxtlik, yüksək rifah, eləcə də xidmətdə uğurlar arzulayıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulayıb. Nazir deyib ki, son illər Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyekt, hərbi şəhərciklər, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilib. Bildirilib ki, yeni təmir olunmuş 5 mərtəbəli 80 mənzilli bu binanın da istifadəyə verilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Nazir hərbi qulluqçulara verilən mənzillərə baxıb, onlarla həmsöhbət olub. Daxili Qoşunların yeni tikilidə mənzillə təmin olunan zabit və gizirləri, onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Daha sonra nazir, general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların Qəbələ, Zaqatala rayonlarında və Şəki şəhərində yerləşən hərbi hissələrində olub. Bu tədbirlərdə nazir müavini-Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov general-polkovnik Vilayət Eyvazova şəxsi heyət və texnika barədə raportlar verib.

Hərbi hissələrin sıra meydanında düzülmüş hərbi qulluqçuların və əsgərlərin qarşısında çıxış edən nazir V.Eyvazov Ulu Öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, dövlətimizin başçısının ümumən ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatına, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıran nazir şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını qeyd edib, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib. O, ölkəmizə qarşı elan olunmamış müharibənin ilk günlərindən Daxili Qoşunların cəbhə xəttində şərəfli döyüş yolu keçdiyini, bu yolda yüzlərlə şəhid verdiyini qeyd edərək bildirib ki, hələ də torpaqlarımızın 20 faizi işğal altında olduğuna görə hazırda ölkəmiz müharibə şəraitindədir. Ona görə də qüdrətli Azərbaycan Ordusu ilə yanaşı, Daxili Qoşunların şəxsi heyəti də öz üzərinə düşən xidməti vəzifələri ilə bərabər, torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpası üçün Ali Baş Komandanın verəcəyi əmrin icrasına hər an hazır olmalı, döyüş hazırlığı səviyyələrini daim yüksək saxlamalıdırlar.

Hərbi hissələrin şəxsi heyətinə konkret tapşırıq və tövsiyələrini verən Daxili İşlər naziri sonda daxili işlər orqanlarının, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Daxili Qoşunların şəxsi heyətinin fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dərin minnətdarlığını bildirib və onu əmin edib ki, Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, göstərilən ali diqqət və böyük etimadı xalqına, Vətəninə, dövlətinə və Prezidentinə sədaqətli xidməti ilə doğruldacaq.

Daxili İşlər naziri V.Eyvazovun rəhbərliyi ilə hərbi hissələrin qərargahlarında komandir heyətləri ilə əməliyyat müşavirələri keçirilib.

Sonra o, hərbi hissələrin tədris, silah otaqlarında, avtomobil və zirehli texnika parkında, tibb məntəqələrində, yeməkxanalarında olub, hərbi qulluqçuların sosial-məişət şəraiti ilə maraqlanıb.

Nazir əsgər yeməkxanalarında şəxsi heyətlə birlikdə nahar edib.

**AZƏRTAC**

# Penitensiar Xidmətin Mühafizə Alayında gənc əsgərlər sədaqət andı içiblər





**Ədliyyə Nazirliyi Penitensiar Xidmətin Mühafizə Alayında həqiqi hərbi xidmətə çağırılmış 350 gənc əsgərin təntənəli hərbi andiçmə mərasimi keçirilib.**



Xidmətin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, dövlət himni səsləndirildikdən sonra dövlət bayrağı hərbi marşın sədaları altında təntənəli surətdə meydanın mərkəzinə gətirilib, gənc əsgərlər vətənə, xalqa və dövlətə sədaqət andı içiblər.

Tədbirdə çıxış edən Mühafizə Alayının komandiri vəzifəsini icra edən ədliyyə mayoru Rauf Əsədov gənc əsgərlərə Ədliyyə Nazirinin müavini - Penitensiar xidmətin rəisi ədliyyə general-leytenantı Ceyhun Həsənovun təbriklərini çatdırıb və onlara vətənə şərəf və ləyaqətlə xidmət etməyi, komandirlərin əmr və tapşırıqlarını sözsüz yerinə yetirməyi, hər an əldə silah ölkəmizin müdafiəsinə qalxmağa hazır olmağı tövsiyə edib.

Çıxış edən əsgərlər və valideynləri yaradılan şəraitə, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

Gənc əsgərlər nizam-intizamlı olacaqlarını, xidmətdə yalnız uğur qazanacaqlarını, Vətənin müstəqilliyi və torpaqlarımızın bütövlüyü uğrunda Ali Baş Komandanın hər əmrinə hazır olduqlarını bildiriblər.

Sonra şəxsi heyətin marş sədaları altında təntənəli hərbi keçidi izlənilib.

Sonda Mühafizə Alayının xüsusi təyinatlı dəstəsi fiziki və döyüş hazırlığını, peşəkarlığını qonaqlar qarşısında nümunəvi çıxışlarla nümayiş etdirib.

**AZƏRTAC**





# Qafqaz Müsəlmanları İdarəsinin sədri Səudiyyə Ərəbistanının Kralı ilə görüşüb

**Sentyabrın 2-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Ciddə şəhərində yerləşən Əs-Səlam Kral sarayında İki Müqəddəs Məscidin Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud ilə görüşüb.**



QMİ-dən AZƏRTAC-a bildiriblər ki, Şeyxülislam Allahşükür Paşazadə Kral Salman bin Əbdüləziz Al Səuda Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın salamlarını, dost Səudiyyə Ərəbistanına xoşbəxtlik, sabitlik və inkişaf diləklərini yetirib.

Allahşükür Paşazadə Kral Salman bin Əbdüləziz Al Səudun Ermənistan tərəfindən təcavüzə məruz qalmış Azərbaycana verdiyi ənənəvi dost, qardaş dəstəyini Prezident İlham Əliyevin və xalqımızın həmişə yüksək qiymətləndirdiyini vurğulayıb. Bildirib ki, Azərbaycan müsəlmanları bu gün mənəvi intibah dövrünə qədəm qoyub. Məscidlərimizin sayı 2000-i keçir, İslam dininin tədris olunduğu ali təhsil ocaqlarımız çoxalır. Ölkəmizdə başqa dinə etiqad edənlər də öz ibadətlərində azaddırlar. Bu ilin noyabr ayında Bakıda dinlərarası sammit keçiriləcək və bu, Azərbaycana olan beynəlxalq etimaddan xəbər verir. QMİ sədri Həcc zəvvarlarının yüksək səviyyədə qarşılanması üçün Krala minnətdarlığını ifadə edib. A.Paşazadə Səudiyyə Ərəbistanı və Azərbaycan arasındakı münasibətlərin bütün İslam aləmi üçün bir nümunə olmasını diləyib.

Görüşdə tərəflər iki dost və qardaş dövlət arasında əməkdaşlıq məsələlərini müzakirə edib, İslamın sülh və mötədillik dini olaraq təlim edilməsinin vacibliyi barədə fikir mübadiləsi aparıblar.

Görüşdə Səudiyyə Ərəbistanının Daxili İşlər naziri Şahzadə Əbdüləziz bin Səud bin Nəyif bin Əbdüləziz, Kral Divanının müşaviri Səəd Nasir Əl-Şisri, Xarici İşlər naziri İbrahim bin Əbdüləziz Əl-Əssaf və İki Müqəddəs Məscidin Xadiminin xüsusi katibinin köməkçisi Təmim bin Əbdüləziz Əs-Səlim, Azərbaycan tərəfdən isə QMİ sədrinin müavini müfti Salman Musayev və Milli Məclisin deputatı Cavanşir Paşazadə iştirak ediblər.

**AZƏRTAC**

*Bakı polisi:*

# Paytaxtın mərkəzi küçələrində fasiləsiz fəaliyyət göstərən xüsusi naryad qrupları yaradılıb

**Paytaxtda ictimai mənəviyyat əleyhinə və milli mentalitetə zidd olan hallara qarşı mübarizə gücləndirilir.**

Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyev AZƏRTAC-a bildirib ki, bu məqsədlə bu gündən başlayaraq Baş Polis İdarəsinin rəhbərliyi tərəfindən təsdiq olunan tədbirlər planına müvafiq olaraq, polisin səlahiyyətləri çərçivəsində konkret vəzifələr müəyyənləşdirilib icraya yönəldilib.

Paytaxt sakinlərindən daxil olan müraciətlərin, müşahidə olunan sosial-neqativ halların təhlilləri göstərir ki, Bakıda fəaliyyət göstərən bəzi əyləncə-istirahət yerlərində gecə klublarında, barlarda, otel və motellərdə, mərkəzi küçələrdə ictimai mənəviyyat əleyhinə, əxlaqa zidd hallar var. Əxlaqa zidd olan bütün halların forma və təzahürlərinə qarşı mübarizənin səmərəliliyini artırmaq üçün milli-mənəvi dəyərlərimizə uyğun olmayan davranışların, ictimai əhəmiyyət kəsb edən digər neqativ halların qarşısının alınması üçün kompleks profilaktik tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Əsasən Səbail rayonu ərazisində yerləşən "Fəvvarələr meydanı" və Nizami küçəsində, Nəsimi rayonu S.Vurğun və Nizami küçələrinin kəsişmələrində yüngül əxlaqlı həyat tərzi sürən şəxslərin profilaktikasına dair tərkibi əməliyyat, təhqiqat, ictimai təhlükəsizlik əməkdaşlarından ibarət fasiləsiz fəaliyyət göstərən xüsusi naryad qrupları yaradılıb.

Paytaxtda xidmətin nümunəvi təşkili və aparılması, asayişin, vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən etibarlı qorunması nəzarətdə saxlanılmaqla müvafiq tədbirlər davam etdirilir.

Görülən işlər, həyata keçirilən tədbirlər barədə ictimaiyyətə mətbuat vasitəsilə mütəmadi məlumatlar veriləcək.

**AZƏRTAC**

# Sərhədçi” İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü qeyd olundu





**Avqust ayının 31-də Dövlət Sərhəd Xidmətinin “Sərhədçi” İdman Olimpiya Mərkəzinin yaradılmasının 10-cu ildönümü münasibətilə bayram tədbiri keçirilmişdir.**

Dövlət Himni ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidməti rəisinin müavini, general-leytenant Azad Ələkbərov Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin bayram təbrikini tədbir iştirakçılarına çatdırmışdır.

Azərbaycan Sərhəd Mühafizəsinin 100-cü ildönümü ərəfəsinə təsadüf edən tədbirdə ulu öndər Heydər Əliyevin milli inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ictimai həyatın bütün sahələrində olduğu kimi, idman sahəsində də böyük zirvələrin fəth edilməsi xüsusi qeyd edilmişdir. Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 2009-cu il avqust ayının 31-də açılışını etdiyi “Sərhədçi” İdman Olimpiya Mərkəzinin respublikamızda, o cümlədən Dövlət Sərhəd Xidmətində idmanın inkişafına yeni bir təkan verməsini, sərhədçi idmançıların İdman Olimpiya Mərkəzinin fəaliyyət göstərdiyi müddət ərzində beynəlxalq və yerli yarışlarda 1254 qızıl, 835 gümüş, 977 bürünc medal qazanmalarını xüsusi vurğulamışlar.

Tədbiridə xidmət zamanı yüksək nəticələr əldə etmiş sərhədçi idmançılar mükafatlandırılmışlar. Bayram tədbiri Dövlət Sərhəd Xidmətinin Zabitlər Evinin Nümunəvi Hərbi Orkestrinin konsert proqramı və idmançıların nümunəvi çıxışları ilə başa çatmışdır.

**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# Azərbaycanın Ombudsman təsisatının Beynəlxalq Miqrasiya Təşkilatı ilə əlaqələri genişlənir

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanova Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Vladimir Giorgiyev ilə görüşüb. Bu barədə AZƏRTAC-a Ombudsman Aparatından məlumat verilib.**



Görüşün məqsədi BMqT və Ombudsman Aparatının miqrantların insan hüquqlarının müdafiəsi, habelə onların gəlmə səbəbləri və tərkibi nəzərə alınmaqla zəruri ehtiyaclarının ödənilməsi, cəmiyyətə inteqrasiyası sahəsində, o cümlədən ölkəmizdə hazırlanmaqda olan “2019-2023-cü illər üzrə beynəlxalq miqrasiyanın idarə edilməsinə dair Azərbaycan Respublikasının Strategiyası”, “2019-2024-cü illər üzrə Azərbaycan Respublikasının Miqrasiya üzrə Milli Strategiyası” və “Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakt”ın insan hüquqları kontekstində həyata keçirilməsi üzrə qarşılıqlı əməkdaşlıq istiqamətlərini müzakirə etmək olub.

Görüş zamanı Azərbaycanda miqrantların hüquqlarının müdafiəsinə dair mövcud vəziyyət, son zamanlarda dünyadakı qlobal miqrant axını baxımından ölkədə genişlənən miqrasiya dinamikası, onun yeni xarakteri və xüsusiyyətləri, müvafiq sahədə mövcud olan qanunvericiliyin təkmilləşdirilməsi, habelə MDB ölkələri sırasında ilk olaraq qəbul edilmiş Miqrasiya Məcəlləsinin effektiv implementasiyası, readmissiya, repatriasiya, həmçinin sənədsiz miqrantların hüquqlarının müdafiəsi, onların zorakılıq və istismara məruz qalmasının qarşısının alınması məqsədilə innovasiyaların tətbiqinə dair fikir mübadiləsi aparılıb.

Miqrantların hüquqlarının müdafiəsi sahəsində Ombudsman təsisatının gördüyü işlər barədə qonağa məlumat verilərək ombudsmanın dörd regional mərkəzinin, təsisatda qaçqınların, məcburi köçkünlərin və miqrantların hüquqlarının müdafiəsi sektorunun, eyni zamanda, bu sahə üzrə ixtisaslaşmış müşavirin fəaliyyət göstərdiyi, həmin sektorda vətəndaşlığı olmayan şəxslərin, əcnəbilərin, ölkəmizdə sığınacaq axtaran şəxslərin də müraciətlərinə baxıldığı, bununla yanaşı, ölkədən kənarda yaşayan vətəndaşlarımızın hüquqlarının müdafiəsi məsələsinin daimi müvəkkilin nəzarətində saxlanıldığı vurğulanıb. O, həmçinin milli preventiv mexanizm qismində miqrantların saxlanma yerlərinə baş çəkildiyini, onların problemlərinin və ehtiyaclarının öyrənilərək dərhal araşdırıldığını bildirib.

Ombudsman, həmçinin Azərbaycanda uğurla həyata keçirilən islahatlar nəticəsində yeni strategiyaların hazırlandığını, bu prosesə qeyri-hökumət təşkilatlarının cəlb olunduğunu, son dövrdə miqrasiya proseslərinin tənzimlənməsi və idarə edilməsi sahəsində Dövlət Miqrasiya Xidməti tərəfindən yeni yanaşmalar tətbiq edilməklə görülən işləri xüsusi vurğulayaraq, müsbət nəticələrin əldə edildiyini, o cümlədən bu Xidmətlə yaradılmış sıx əməkdaşlıq sayəsində miqrantların hüquqlarının daha səmərəli həyata keçirilməsinə nail olunduğunu diqqətə çatdırıb.

Vladimir Giorgiyev təmsil etdiyi təşkilatın Azərbaycanda məcburi köçkün və miqrantların hüquqlarının təmini sahəsində həyata keçirdikləri layihələr barədə danışıb. O, BMqT-nin regionlarda bu kateqoriyadan olan insanların kompakt yaşadığı yerlərdə təmiz su təminatının bərpa edilməsi istiqamətində tədbirlər görüldüyünü, o cümlədən hüquq məsləhətxanalarının dəstəklənməsinə dair layihə çərçivəsində bir sıra mühüm işlər aparıldığını, xüsusilə repatriasiya olunmuş şəxslərə dəstək göstərildiyini, onlara pulsuz hüquqi yardımın edildiyini vurğulayıb.

Qonaq nəinki əhalinin bu kateqoriyadan olan şəxslərinin, habelə ümumilikdə bütün insanların insan alveri barəsində maarifləndirilməsi məqsədilə metro stansiyalarında müvafiq maarifləndirici posterlərin asıldığını da diqqətə çatdırıb.

Görüşdə müvəkkil BMqT ilə gələcəkdə Ombudsman təsisatı, BMqT və vətəndaş cəmiyyətindən ibarət üçtərəfli əməkdaşlıq çərçivəsində, xüsusilə bəzi məsələlərə diqqət yetirilməsini vacib hesab edərək, təsisatın əməkdaşları, dövlət qurumları, vətəndaş cəmiyyəti üzvləri və yerli icmalar da cəlb edilməklə bu istiqamətdə paytaxt və regionlarda, həmçinin sərhəd-buraxılış məntəqələrində birgə hüquqi maarifləndirmə tədbirlərinin daha da genişləndirilməsini, birgə araşdırmaların aparılmasını, ölkədə və dünyada miqrasiya üzrə baş verən yeniliklərin əhaliyə və onlarla işləyən qurumların nümayəndələrinə çatdırılması məqsədilə birgə hüquqi nəşrlərin, plakatların işlənib hazırlanmasını, qanunsuz miqrantların saxlanma yerlərində saxlanılan şəxslərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün paytaxt və regionlarda sosial tədbirlərin təşkil edilməsini, regional sığınacaqların yaradılmasını təklif edib. O, bu şəxslərin mövcud fərdi problemlərinin müəyyənləşdirilməsinin, sənədsiz miqrantlar üçün pulsuz hüquqi məsləhətlərin verilməsinin, həmin şəxslərin hüquqi vəziyyətini tənzimləyən milli qanunvericiliyin və beynəlxalq sənədlərin, o cümlədən mədəniyyətimizin, dilimizin, dinimizin təbliğinə dair ixtisaslaşmış modulların hazırlanmasının vacibliyini qeyd edib.

V.Giorgiyev ombudsmanın qaldırdığı məsələlər üzrə qarşılıqlı əməkdaşlıqda maraqlı olduğunu, eyni zamanda, görüşdə səsləndirilən təkliflərin gələcək əməkdaşlıq çərçivəsində nəzərə alınacağını söyləyib.

**AZƏRTAC**

# AZƏRTAC TASS agentliyini 115 illik yubileyi münasibətilə təbrik edib

**Rusiyanın qocaman informasiya agentliyi TASS özünün 115 illiyini qeyd edir. Bu münasibətlə AZƏRTAC-ın kollektivi adından İdarə Heyətinin sədri Aslan Aslanov agentliyə təbrik məktubu ünvanlayıb.**





AZƏRTAC xəbər verir ki, təbrik məktubunda fəaliyyəti dövründə TASS-ın böyük inkişaf yolu keçdiyi və dünya xəbər sənayesinin brendinə çevrildiyi vurğulanır. “Tam əminliklə demək olar ki, agentliyin öz standartlarına və prinsiplərinə həmişə sadiq qalması böyük hörmətə layiqdir. TASS jurnalistlərin bir çox nəsli üçün əsl məktəbə çevrilib, onlarda təkcə peşəkarlıq deyil, həm də yüksək insani keyfiyyətlər, məsuliyyət hissi, daim özünü təkmilləşdirməyə səy göstərmək xarakterini formalaşdırıb. Agentlik daimi yaradıcılıq axtarışındadır, öz işində ən yeni texnologiyalardan fəal istifadə edir, təkcə zamanla ayaqlaşmağa yox, həm də onu qabaqlamağa can atır”, - deyə təbrik məktubunda vurğulanır.

Sentyabrın 1-də TASS “Açıq qapı günü” elan edib. Baş direktor Sergey Mixaylov və baş direktorun birinci müavini Mixail Qusman yubiley münasibətilə həmkarlarının və dostlarının təbriklərini qəbul ediblər. Rusiya Prezidenti Vladimir Putin, Patriarx Kirill, Dövlət Dumasının sədri Vyaçeslav Volodin və başqaları TASS-ın kollektivinə təbrik məktubları ünvanlayıblar.

TASS 1904-cü il sentyabrın 1-də Sankt-Peterburq Teleqraf Agentliyi kimi yaradılıb və Rusiya imperiyasında dövlət informasiyasını yayan ilk vahid orqan olub. Keçmiş SSRİ dövründə agentlik Sovet İttifaqı Teleqraf Agentliyi adı altında fəaliyyət göstərib. Digər müttəfiq respublikaların informasiya agentlikləri ilə yanaşı, Azərinform da onun tərkibinə daxil idi.



Bu gün TASS Rusiyanın dünyada ən böyük xəbər resurslarından biridir. Agentlik hər gün Rusiya və xarici ölkələrdəki müxbirlərinin hazırladıqları 1,5 minə yaxın xəbər və 500-dən çox fotoşəkil və videosüjet yayır. TASS-ın abunəçiləri 60 xəbər lentinin geniş xəttindən rus və ingilis dillərində tematik xidmətlərdən istifadə edirlər. Agentliyin xarici ölkələrdə 60 müxbir məntəqəsi var. Baş direktorun birinci müavini Mixail Qusmanın sözlərinə görə, agentliyin uğur qazanmasının əsas amillərindən biri də toplanmış zəngin təcrübənin nəsildən-nəslə ötürülməsidir. “Əsas olan TASS markası, reputasiyası, brendidir. Günümüzdə - fasiləsiz informasiya axınının olduğu dövrdə TASS informasiya sabitliyinin, dəqiqliyinin və qüsursuz reputasiyanın bayraqdarı olmalıdır. Agentliyin vəzifələri arasında məhz bu amil əsas götürülməlidir - həm indi, həm də perspektivdə”, - deyə Mixail Qusman vurğulayıb.

Qeyd edək ki, AZƏRTAC və TASS arasında münasibətlər yüksək səviyyədədir. Hər iki agentlik beynəlxalq informasiya təşkilatları - Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatı (OANA) Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyası (ANİA) və digər transmilli informasiya strukturları çərçivəsində bir-birini dəstəkləyir. Hər iki agentlik OANA-ya və özündə dünyanın 130 mötəbər media qurumunu birləşdirən Dünya Xəbər Agentlikləri Konqresinə uğurla sədrlik edib. AZƏRTAC və TASS, eyni zamanda, MDB İnformasiya Şurasının həmtəsisçisidirlər.

Azərbaycan və Rusiyanın aparıcı informasiya agentlikləri olan AZƏRTAC və TASS bu gün birgə layihələr həyata keçirir, tematik sərgilər təşkil edir, fəal xəbər mübadiləsi aparırlar. İnformasiya və təcrübə mübadiləsinə dair ikitərəfli saziş çərçivəsində ustad dərsləri, həm jurnalistlər, həm də texniki personaldan ibarət əməkdaşların qarşılıqlı səfərləri həyata keçirilir.

**AZƏRTAC**

# Azərbaycan Milli Olimpiya Komitəsinin nümayəndə heyəti Qırğızıstanda beynəlxalq forumda iştirak edir

**Sentyabrın 1-də Qırğızıstanın Çolpon-Ata şəhərində MDB, Baltikyanı ölkələrin və Gürcüstanın Milli Olimpiya komitələrinin forumu öz işinə başlayıb.**

Foruma adıçəkilən Milli Olimpiya komitələrinin prezidentləri, vitse-prezidentləri və digər üzvləri qatılıblar. Azərbaycanı tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un Baş katibinin müavini Azər Əliyev təmsil edirlər.

Azərbaycanın Milli Olimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, 12 ölkənin Milli Olimpiya komitələrinin 50-yə yaxın nümayəndə heyəti sentyabrın 4-dək birgə fəaliyyət, tibbi təminat məsələləri, habelə idman bazaları və mərkəzlərinin istifadəsi və təlim-məşq proseslərinin həyata keçirilməsində qarşılıqlı fəaliyyət, beynəlxalq idman təşkilatları səviyyəsində əməkdaşlıq perspektivlərini müzakirə edəcəklər. Forum Beynəlxalq Olimpiya Komitəsinin “Olimpiya Həmrəyliyi” proqramı çərçivəsində keçirilir.

**AZƏRTAC**

# Ermənistan rəhbərliyi münaqişənin sülh yolu ilə həllinə ciddi zərbə vurur

Ermənistanın baş naziri və Prezidentinin Azərbaycanın hazırda Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində işğalçı ölkənin yaratdığı oyuncaq separatçı rejimin qondarma “müstəqillik gününü” təbrik edərək, bu ölkənin təcavüzkar siyasətini açıq şəkildə etiraf etməsi, eləcə də işğalçı Ermənistanın siyasi rəhbərliyi ilə yanaşı, diplomatik nümayəndəliklərinin rəhbərlərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ və ətraf bölgələrinə səfər etməsi onu göstərir ki, işğalçı ölkə beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması ilə müşayiət olunan təcavüzkar siyasətin nəticələrinə söykənən status-kvo vəziyyətinin möhkəmləndirilməsinə yönəlmiş cəhdlər edir və beləliklə də, münaqişənin sülh yolu ilə həllinə ciddi zərbə vurur.

Bunu AZƏRTAC-a Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidmətindən bildiriblər.

Nazirlikdən deyilib ki, Ermənistan rəhbərliyinin son zamanlar verdiyi tamamilə əsassız bəyanatlar və atdığı addımlar bu ölkənin öz qanunsuz əməllərinə özünü və öz əhalisini inandırmaq məqsədi güdür. Əks təqdirdə, dünyanın heç bir dövləti tərəfindən tanınmayan, işğalı çoxsaylı sənəd və qətnamələrdə pislənilən və Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin bir hissəsi olan torpaqlarda “müstəqillik bayramını” qeyd etmək başqa nə cür adlandırıla bilər.

Azərbaycanın beynəlxalq tanınmış ərazilərinin hərbi işğalı və yerli azərbaycanlı əhalinin qanlı etnik təmizlənməsi, eləcə də digər insanlıq əleyhinə cinayətlərə görə məsuliyyət daşıyan Ermənistan dərk etməlidir ki, bu torpaqlar yenidən Azərbaycanın nəzarətinə qayıdacaq və bölgənin hər iki icması yenidən birgə sülh və təhlükəsizlik şəraitində yaşayışını təmin edəcək. Münaqişənin digər həll yolu mövcud deyil və ATƏT-in Minsk qrupunun həmsədrləri qismində beynəlxalq vasitəçilər, habelə bütün dünya ictimaiyyəti bunu gözəl dərk edir.

**AZƏRTAC**

# Silahlı Qüvvələrə Yardım Fonduna daxil olan vəsaitin məbləği açıqlanıb

**Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna cari il sentyabrın 1-dək 102 milyon 500 min 283,98 manat, 213 min 577,88 ABŞ dolları, 17 min 266 avro və 5000 rubl vəsait yığılıb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli Fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

**AZƏRTAC**

# Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlıq uğurla davam etdirilir





**Azərbaycan Respublikasının prokurorluq orqanları korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlığını davam etdirir.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, avqustun 26-27-də Keniyanın Naivaşa şəhərində Avropa İttifaqının maliyyə dəstəyi ilə Keniya Baş Prokurorluğu və BMT-nin Narkotiklər və Cinayətlər üzrə İdarəsi (UNODC) tərəfindən “Düşüncənin liderliyi” adlı seminar keçirilib.

Tədbirdə beynəlxalq ekspertlər qismində ABŞ, Böyük Britaniya, Avstraliya, Niderland, Yeni Zelandiya, Cənubi Afrika Respublikasının prokurorluq və digər hüquq-mühafizə orqanlarının, eləcə də BMT-nin nümayəndələri ilə yanaşı, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru İsfəndiyar Hacıyev iştirak edib.

Məruzəçi qismində çıxış edən İ.Hacıyev Azərbaycanda korrupsiyaya qarşı mübarizənin Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsinə söykəndiyini vurğulayaraq həyata keçirilmiş mütərəqqi hüquqi və institusional tədbirlər barədə ətraflı məlumat verib. Azərbaycan Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiyasının, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti barədə məlumat verən İ.Hacıyev dövlət sektorunda korrupsiyaya qarşı qabaqlayıcı tədbirlərin uğurlu nümunəsini təşkil edən “ASAN xidmət” mərkəzlərinin fəaliyyətindən bəhs edib, dövlətimizin başçısının “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanından irəli gələn vəzifələr və həyata keçirilən tədbirlər barədə danışıb.

İ.Hacıyev Azərbaycan Prokurorluğu tərəfindən beynəlxalq əməkdaşlığa xüsusi diqqət yetirildiyini vurğulayaraq bu istiqamətdə Beynəlxalq Prokurorlar Assosiasiyasının (İAP) Antikorrupsiya Prokurorları Şəbəkəsinin (NACP) xüsusi maraq qrupunun sessiyalarının Assosiasiyanın illik konfranslarında ölkəmizdə keçirilməsi, bundan başqa, Avropa İttifaqının Əkizləşmə Layihəsi (“Tvinninq” layihəsi) çərçivəsində Litvanın Xüsusi İstintaq Xidməti ilə Baş İdarə arasında potensialların artırılması ilə bağlı faydalı əməkdaşlıq, həmçinin Baş İdarə tərəfindən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Antikorrupsiya Şəbəkəsi və Beynəlxalq Antikorrupsiya Akademiyası (İACA) və digər qurumlarla əməkdaşlığın korrupsiyaya qarşı mübarizə sahəsində qabaqcıl nailiyyətlərin öyrənilməsi, bunun cari fəaliyyətdə qarşıya çıxan çətinliklərin həllində və fəaliyyətin təkmilləşdirilməsində səmərəli tətbiqi təcrübəsindən danışıb.

Tədbirdə ölkəmizdə korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş videoçarx nümayiş etdirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**AZƏRTAC**

## Bakı Şəhər İcra Hakimiyyətində qışa hazırlıqla bağlı müşavirə



**Bakı Şəhər İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlığın vəziyyəti ilə bağlı geniş müşavirə keçirilmişdir. Rayon icra hakimiyyəti başçılarının, müvafiq struktur rəhbərlərinin iştirakı ilə keçirilən tədbirdə payız-qış mövsümündə xüsusi halların baş verdiyi zaman hər bir təşkilatın konkret fəaliyyətini müəyyən edən xüsusi Proqram təsdiq edilmişdir.**

Tədbirdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov ölkə başçısının apardığı siyasət nəticəsində Bakı şəhərinin sürətlə inkişaf edərək dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyini, şəhər infrastrukturunun inkişaf etdiyini qeyd edərək payız-qış mövsümünə hazırlıq tədbirlərinin də şəhərin inkişaf tempinə uyğun təşkil edilməsinin vacibliyini vurğulamışdır. Qeyd edilmişdir ki, paytaxt qurumları qış aylarında üzərilərinə düşən vəzifələri dəqiq bilməli, yarana biləcək problemləri operativ şəkildə həll etməlidir. Şəhər icra hakimiyyətinin, idarə və təşkilatların xüsusi texnikaları saz vəziyyətdə olmalı, kifayət qədər qum, duz və lazımi invertar ehtiyatı yaradılmalıdır.

Bildirildi ki, güclü qar yağdığı zaman və ya hər hansı digər fövqəladə halın - güclü küləyin, leysan yağışın, zəlzələnin və ya digər təbii fəlakətin baş verdiyi təqdirdə mobil rabitədə yarana biləcək problemləri nəzərə alaraq hər bir rəhbər şəxs öz iş yerində olmalı və yaranmış problemlərin həlli üçün konkret tədbirlər görməlidir. Müşavirədə şəhər və rayon qurumları arasında konkret vəzifə bölgüsü müəyyənləşdirildi, paytaxt rayonlarında qışa hazırlıqla bağlı qərargahların yaradılması və aidiyyəti təşkilatların iştirakı ilə müşavirələrin keçirilməsi tapşırıldı.

Müşavirədə son zamanlar bir çox inkişaf etmiş ölkələrin iri şəhərlərində güclü yağışların, sel və subasma hallarının baş verməsini nəzərə alaraq, mürəkkəb landşafta malik olan Bakı şəhərində belə halların baş verəcəyi təqdirdə aidiyyəti strukturların üzərinə düşən konkret vəzifələr müəyyən edilmişdir.

**İsrafil KƏRİMOV,**
**Bakı Şəhər İcra Hakimiyyəti Mətbuat Xidmətinin rəhbəri.**

## DAŞKƏSƏNDƏ ALİ VƏ ORTA İXTİSAS MƏKTƏBLƏRİNƏ QƏBUL OLUNAN TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

**Daşkəsən Rayon İcra Hakimiyyətində respublikanın müxtəlif ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olunaraq tələbə adını qazanan rayon gəncləri ilə görüş keçirilib. Görüşdə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev, rayon icra hakimiyyətinin məsul işçiləri, Təhsil Şöbəsinin əməkdaşları, məzunlar, müəllimlər, ictimaiyyət nümayəndələri və valideynlər iştirak ediblər. Tədbir iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış əzəmətli abidəsi önünə gül dəstələri qoyaraq ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.**



**Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyev** tədbiri giriş nitqi ilə açaraq, qəbul imtahanlarında müvəffəqiyyətlə iştirak edərək tələbə adını qazanmış məzunları təbrik edib. Qeyd edib ki, Azərbaycan təhsilinin bugünkü inkişafı öz mənbəyini ümummilli lider Heydər Əliyev tərəfindən aparılan uzaqgörən və məqsədyönlü siyasətdən alıb. Ulu öndər müəllimlərə hər zaman sonsuz hörmətlə yanaşıb. Azərbaycanda ali təhsil də Heydər Əliyevin rəhbərliyi dövründə inkişafa qədəm qoyub. Ulu öndər Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra da ölkəmizdə elmin, təhsilin inkişafına hesablanan böyük işlər görüb. Məktəb tikintisi, xaricdə təhsil, peşə təhsilinə diqqət, şagirdlərə dərsliklərin pulsuz verilməsi yenidən reallaşıb, büdcədən təhsilə ayrılan vəsait ildən-ilə çoxalıb. Hər il ən yüksək bal toplayan gənclərə xüsusi Prezident təqaüdü, istedadlı gənclərə fəxri təqaüdlərin verilməsi də təhsilə qayğıdır. Həmin siyasət bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun yüksək səviyyədə davam etdirilir.

Rayon rəhbəri Daşkəsən rayonunda təhsilin inkişafına hər zaman göstərdikləri diqqət və qayğıya görə möhtərəm Prezidentimiz cənab İlham Əliyevə və Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirdi.

**Daşkəsən Rayon Təhsil Şöbəsinin müdiri Zaur Məmmədov** çıxış edərək, qəbul imtahanlarında müvəffəqiyyətlə iştirak edərək tələbə adını qazanmış məzunları təbrik edərək, ölkədə gedən davamlı inkişafdan və həyata keçirilən uğurlu təhsil islahatlarından və qəbul olunmuş Dövlət proqramlarının uğurla icra olunması nəticəsində təhsilin günü-gündən mütərəqqi, qabaqcıl təcrübəni özündə əks etdirərək sivil dünyaya inteqrasiya etməsindən söhbət açdı. Qeyd etdi ki, respublikamızın bütün bölgələrində olduğu kimi Daşkəsən rayonunda da təhsil ocaqları müasir səviyyədə yenidən qurulmuş, maddi-texniki bazası, ən önəmlisi isə tədrisin keyfiyyəti əsaslı surətdə yaxşılaşmış, hazırda bu tendensiya davam etməkdədir.

Təkcə son 8 ildə Quşçu, Mollahəsənli, Muşavaq, Bayan, Əmirvar-Əhmədli kəndlərində və Daşkəsən qəsəbəsində müasir tələblərə tam cavab verən 6 ümumtəhsil məktəbin tikilib istifadəyə verilməsi, 7 modul tipli məktəbin quraşdırılması, bir çox təhsil müəssisəsinin əsaslı və cari təmir edilməsi buna əyani sübutdur. Bu il məzunlarımızdan 88 nəfəri respublikanın ali və orta ixtisas məktəblərinə qəbul olunmaq üçün ərizə vermişdir. İlkin məlumata görə, onlardan 81 nəfəri ölkənin müxtəlif nüfuzlu ali və orta ixtisas məktəblərinə qəbul olunmuşdur. Bu göstərici ötən illərlə müqayisədə çox yüksəkdir, ürəkaçandır.

Daşkəsən şəhər İ.Nəsimi adına 1 nömrəli tam orta məktəbin coğrafiya müəllimi Səbinə Məmmədova, tələbə adını qazanmış məzunlardan Röyal Hüseynov və Nigar Abbasova və digərləri gənclərlə görüşün təşkilinə, göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə və respublikamızın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Xəzər rayonu: Dünənin, bugünün vəhdətində sosial-iqtisadi inkişaf

İyirmi il öncə Əzizbəyov metrosundan (indiki Koroğlu) çıxıb avtobusla Mərdəkana (Əzizbəyov rayonuna) indiki Xəzər rayonuna gedərkən yolların kənarlarında əkilmiş (bitmiş yox) bəzək ağaclarına baxdıqca keçən əsrin 68-ci ilində Çexoslovakiyanın Brno şəhəri gözlərim qarşısında canlanırdı. O zaman Belarusiyanın Vitebski şəhərində hərbi xidmətdə idim. Həmin ilin oktyabr ayında bizim polku həyəcan siqnalı ilə (desant polkunu) Smolenski şəhərinin yaxınlığındakı meşəyə atdılar. Bir həftədən sonra isə yenə də həyəcan siqnalı ilə "polnıy boyevoy" yəni, bir həftənin suxoy payoku, patronu, qumbarası, qranatamyot gülləsi, üstəgəl paraşüt, — bir sözlə təpədən dırnağa kimi "yüklənmiş" halda AN-12 hərbi təyyarəsinə doldurub yuxarıda adın çəkdiyim şəhərin mülki hava limanına atdılar. Həmin məqamda şəhər hələ şirin yuxuda idi. Bizim polk təyyarədən düşən kimi (bəxtimiz onda gətirdi ki, paraşütlə atlanmadıq, onu soyunub təyyarənin içində qoyduq) əmr verildi ki, ilk növbədə hərbi kazarmaları mühasirəyə alaq. Elə də oldu. Artıq səhər idi, şəhər əhli işə gedirdi. Bizim rotamız Brnodan Praqaya gedən yola nəzarət edirdi. İnsanlar bizi - "çağırılmayan qonaqları görüb dəhşətə gəlmişdilər. Kimi barmaq silkələyir, kimi daş atır, kimi də "akupantı otkuda priyexali, uberaytis otsuda" deyirdi.

O zamankı insanların yaxşı yadında qalar. Biz Çexoslovakiyada baş verəcək dövlət çevrilişinin qarşısını almağa getmişdik.

Sonradan bizim rotanı şəhərin ən yüksək yeri sayılan (təsəvvür edin Şəhidlər Xiyabanı) parka gətirdilər. Oradan hərbi kazarmalara nəzarət edirdik. Demək olar ki, həmin kazarmalar "Bəhramgur" meydanında sıralanmışdı. Şəhər isə parkdan əl içi kimi görünürdü. Parkdakı ağacların əksəriyyəti alma, armud, gavalı ağacları idi. Bizim "stariklər" bir həftənin içində həmin ağacların qanadlarını şilküt eləmişdilər. Bir neçə "molodoy" əsgərin isə o meyvələrdən yığıb yeməyə ixtiyarı yox idi. "Dedavşinalar", ruslar buna icazə vermirdi. Biz ancaq gecələr kazarmalardan uzaqbaşı bir kilometr yuxarıda qorovulda dayanırdıq. Və gündüzlər şəhəri seyr edirdik. Onu da qeyd edim ki, rotamız həmin parka şəhərin içindən keçib gəlmişdi. Təmiz, möhtəşəm binaları olan, bütün səkilərində meyvə ağaclarında heç kəsin əli dəyməyən meyvələr insanın üzünə gülürdü. Bax o zaman məndə belə bir fikir yarandı ki, bizim bu səviyyəyə çatmağımıza ən azı yüz il lazımdır.

Bu gün sevinirəm ki, indi Mərdəkana gedən yolun kənarlarında meyvə ağacları əkilməsə də bəzək ağacları, yaşıllıqlar adamın ruhunu oxşayır. Və fikirləşirəm ki, o zaman düşündüyüm yüz ilin əlli ili arxada qalıb. Arxada qalan əlli ildə nəinki Azərbaycanda, dünyada çox dəyişikliklər baş verib. Ən önəmlisi isə 70 il zəli kimi qanımızı (neftimizi) soran bir ölkə — sovetlər birliyi dağıldı. (dağıtdılar). Baxmayaraq ki, həmin quruluşun da öz müsbət cəhətləri vardı. Əgər 70 ildə Azərbaycan öz sərvətlərindən özü istifadə etsəydi, bəlkə də o zaman mənim gördüyüm Brno şəhərindən qat-qat gözəl olardı. Əgər 15 ildə belə yüksək inkişaf yolu keçmişiksə, deməli yüz ilə bir şey qalmayıb.

Həmin o əlli ilin içində Abşeron yarımadasının şimal-şərqində yerləşən indiki Xəzər rayonu da kənd-kənd böyüdü.

O zaman ərazisi 403,6 kvadratkilometr olan rayonun 12 yaşayış məntəqəsi olmuşdur. Hazırda 8 yaşayış məntəqəsini özündə birləşdirən Xəzər rayonunun ərazisi 336,86 kvadratkilometrdir.

Yeri gəlmişkən Abşeron yarımadasının 32 kəndi arasında Mərdəkan qəsəbəsinin xüsusi yeri var. 1936-cı ildə şəhər tipli qəsəbə adı verilən bu məkanın Mərdəkan adlandırılması da təsadüfi deyil. Yazılı mənbələrə istinadən öyrənirik ki, ərazidə 26 alban tayfalarından biri olan "Mardlar" tayfası yaşayıb və elə o vaxtdan da kəndi Mərdəkan adlandırıblar. Mərdəkan sözü tarixi dönəmlərdə bugünümüzə qədər gəlib çatmışdır. Qəsəbə öz tarixi abidələri ilə də məşhurdur. Vaxtı ilə düşmənlər qarşısına sipər çəkilmiş Mərdəkan qalaları, Xanbaba hamamı, məqbərə və türbələr, (XV-XVII əsrlər) əsası 1890-cı ildə qoyulmuş dendroloji park (Nəbatat parkı). Parkda bu gün də qiymətli bitkilər qorunub saxlanılır. 12 hektar sahəsi olan parkın ərazisində dünyanın müxtəlif yerlərindən gətirilmiş hər növ bitki və ağac növlərindən zəngin kolleksiyalar yaradılıb. Onu da qeyd edək ki, ötən illərin sosial-iqtisadi, mədəni quruculuğunda son on beş ildə görülən məqsədyönlü işləri də əlavə etsək, rayonun ictimai həyatındakı yeniliklərin planlı şəkildə yerinə yetirilməsinin şahidi oluruq.

Bu baxımdan avqustun 8-də Xəzər Rayon İcra Hakimiyyətində 2019-cu ilin birinci yarısında görülən işlərin yekunlarına dair növbəti hesabat yığıncağının keçirilməsi görülən işlərin əyaniliyindən xəbər verirdi.

Tədbirdə rayon İH-in başçısı Elşən Salahov, başçının müavinləri, aparatın şöbə müdirləri, idarə-müəssisə və hüquq-mühafizə orqanlarının rəhbərləri, RİH başçısı yanında şura üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

İclası RİH başçısı, şuranın sədri Elşən Salahov giriş sözü ilə açaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyul ayının 31-də Nazirlər Kabinetinin 2019-cu ilin birinci yarımilliyin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasın keçirildiyini qeyd etdi, dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən söz açdı.

İH-in başçısı çıxışında respublika Prezidenti İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində bu gün bölgələrlə bərabər Bakıətrafı qəsəbələrin də sosial-iqtisadi inkişafının sürətlə davam etdirildiyini vurğuladı və qeyd etdi ki, ötən dövr ərzində Xəzər rayonunun sosial-iqtisadi həyatında baş verən pozitiv dəyişikliklər bütün sahələrdə yüksələn xətlə müşahidə olunmuşdur.

Belə ki, rayon üzrə sənaye məhsulu istehsalı 105 milyon manat təşkil etmiş, nəqliyyat sektorunda 840 milyon manatlıq, rabitə müəssisələri tərəfindən idarə, müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki qiymətlərlə 2 milyon manatlıq xidmət göstərilmişdir.

2019-cu ilin altı ayı ərzində rayonda iqtisadi və sosial sahələrin inkişafı üçün maliyyə mənbələrindən əsas kapitala 87 milyon manat vəsait yönəldilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 2,4 faiz çox olmuşdur.

Ötən dövr ərzində tikinti kompleksində 60 milyon manatlıq tikinti-quraşdırma işləri görülmüş, pərakəndə əmtəə dövriyyəsi 358 milyon 579 min manat təşkil etmişdir. Satılmış əmtəələrin 32,3 faizi hüquqi şəxslərin, 67,7 faizi isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşmüşdür. İaşə müəssisələrinin ümumi dövriyyəsi 37 milyon manat, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 270 milyon 975 min manat təşkil etmişdir. Rayonun iqtisadi və sosial sahələrində çalışanların orta aylıq nominal əmək haqqı keçən ilin müvafiq dövrünə nisbətən 2,8 faiz artaraq 743 manat olmuşdur.



Ötən dövrdə rayonda 1785 yeni iş yeri açılmışdır. Bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 65 faiz çoxdur.

Dövlət Sosial Müdafiə Fondunun Xəzər rayon şöbəsində 01 iyul 2019-cu ilə olan vəziyyətə görə 17 min 323 əmək pensiyaçısına pensiya ödənilmişdir. Hazırda rayon üzrə 1426 ailəyə ünvanlı dövlət sosial yardım verilir.

Əhalinin məşğulluğunu təmin etmək məqsədilə respublika Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən Xəzər rayonuna 595 ştat vahidi işçi yeri ayrılmış, rayon ərazisində yaşayan işsiz aztəminatlı ailələrin üzvlərindən ibarət 575 nəfər işə qəbul edilmişdir. Bütün qəsəbələri əhatə edən həmin işçi qrupları ərazidə, park və meydanlarda, yolların kənarında, məhəllədaxili küçələrdə təmizlik işləri görür, vaxtında əmək haqqı alırlar.

Vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə rayon icra hakimiyyəti aparatı yanında əhalinin məşğulluğuna kömək göstərmək üçün əlaqələndirmə komitəsi yaradılmışdır.

13 mart 2019-cu ildə rayonda Qadın Resurs Mərkəzi açılmış, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən 106 qadın qeydiyyatdan keçmiş, 14 qadının təqdim etdiyi biznes plan qəbul edilərək onlara Mərkəz tərəfindən fəaliyyətə başlamaları üçün lazımi avadanlıqlar verilmişdir. Eyni zamanda Sahibkarlığın İnkişafı Fondu 2 sahibkarlıq subyektinə 95 min manat güzəştli kredit vermiş və həmin sahibkarlar tərəfindən 7 yeni iş yeri açılmışdır.

Ötən dövr ərzində rayon Mənzil-kommunal Təsərrüfatı Birliyi Binə, Mərdəkan, Buzovna, Şimal DRES yaşayış massivində təmizlik abadlıq işləri aparmış, Mərdəkan və Şüvəlan qəsəbələrində 7 min 544 kvadratmetr asfalt örtüyü salmışlar.

111 və 112 saylı MKİS Buzovna qəsəbəsində, 115 saylı MKİS Mərdəkan qəsəbəsində müxtəlif sahələri əhatə edən çoxtəyinatlı işlər görmüşlər.

Xəzər Su-Kanal İdarəsi tərəfindən də qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə bir çox tədbirlər yerinə yetirilmişdir. Belə ki, bu gün su istifadəçisi olan abonentlərin sayı 35 min 966-ya çatdırılmışdır.

Rayon ərazisində mövcud olan 80 ədəd içməli su bulağı daimi su ilə təmin edilməklə nəzarətdə saxlanılır və mütəmadi təmir işləri aparılır. Ümumilikdə "Azərsu" ASC tərəfindən 6 ay ərzində rayonun qəsəbələrinə 56,1 kilometr su xətti çəkilmişdir.

Bakı Regional Qaz İstismar Sahəsinin Xəzər rayonu üzrə Texniki istismar xidməti ötən dövr ərzində itkilərin azaldılması və qaz təchizatının yaxşılaşdırılması üçün nəzərdə tutulan tədbirlər planı əsasında xeyli işlər görmüş, nəticədə rayon sakinləri bu gün fasiləsiz olaraq qazla təchiz edilirlər. Lakin görülən işlərlə yanaşı əhalini narahat edən bəzi problemlər hələdə qalmaqdadır. Bunlar qazlaşdırılmayan ərazilər və sayğaclarla bağlı məsələlərdir. Ölkə başçısının verdiyi tapşırıqlara əsasən yaxın vaxtlarda bu sahədə ciddi tədbirlərin görülməsi, əhalini narahat edən problemlərin aradan qaldırılması istiqamətində işlər görüləcəkdir.

Xəzər Enerji Təchizatı və Satışı İdarəsi, həmçinin Zirə Enerji Təchizatı və Satışı İdarəsi bu ilin 6 ayı ərzində 18 ədəd kompleks transformator məntəqəsi və 22 ədəd güc transformatoru dəyişdirmişdir. Bundan başqa, 554 ədəd transformator məntəqəsi cari təmir və təftiş olunmuş, 3376 metr özünüidarə edən kabel yenisi ilə əvəz edilmişdir. Görülən işlərin nəticəsində bu gün abonentlər fasiləsiz elektrik enerjisi ilə təmin edilir.

Əhalinin rabitə və informasiya texnologiyalarına çıxış imkanlarının daha da yaxşılaşdırılması üçün Xəzər telefon qovşağının bu ilin iyul ayının 1-də olan tutumu 71 min 804 nömrə, abunə tutumu isə 59 min 363 nömrə istifadəyə verilmişdir.

Həmişə olduğu kimi ötən dövrdə də abadlıq və yenidənqurma işləri rayonda uğurla həyata keçirilir. Keçirilən səyyar görüşlərdə vətəndaşların çoxsaylı müraciətlərini nəzərə alaraq daxili imkanlar hesabına Şüvəlan qəsəbəsi Ziyarətgahdan Şimal DRES yaşayış massivinə gedən yolda 31, Türkan-Hövsan yolunda isə 32 dirək basdırılaraq yeni işıqlandırma sistemi quraşdırılmışdır. Bugünün ən vacib məsələlərindən biri olan yaşıllıqların salınması və onlara qulluq göstərilməsinin təşkilidir. Həmişə diqqətdə saxlanılan bu məsələ ilə əlaqədar ötən il ərzində rayon ərazisində 59 min 830 ədəd müxtəlif növ ağac əkilmiş, bu il də bir o qədər ağac əkilməsi nəzərdə tutulmuşdur.

Rayonun ərazisində Heydər Əliyev Fondu və digər investisiya lahiyələri çərçivəsində təmir və tikintisi gedən 10 obyekt mövcuddur. Bunlardan Mərdəkan qəsəbəsində Müalicə Pansionatında, Şüvəlan qəsəbəsində Şimal Elektrik Stansiyasının 2-ci blokunda, Buzovna qəsəbəsi 7 saylı Vərəm Əleyhinə Dispanserdə, Tibbi Reabilitasiya Mərkəzində, Gindes adına Uşaq Sümük-Vərəm Sanatoriyasında, Zirə qəsəbəsində Sənaye Texnologiya MMC-də, Qala qəsəbəsində GEMS-Dünya Akademiyasında, Zirə qəsəbəsindəki Sərdarov adına zavodun filialında isə işlər müvəqqəti dayandırılmışdır. Yəqin ki, yaxın vaxtlarda təmiri və tikintisi yarımçıq qalan obyektlərdə işlərə yenidən başlanacaq.

Ötən dövr ərzində rəsmi dövlət bayramları və ictimai-siyasi əhəmiyyət kəsb edən digər tarixi hadisələrlə bağlı rayon ərazisində geniş ictimaiyyətin iştirakı ilə bir çox kütləvi tədbirlər keçirilmişdir.

Yanvarın 19-da Mərdəkan mədəniyyət sarayında RİH-in təşkilatçılığı ilə rayonun bütün idarə, müəssisə və təşkilat rəhbərlərinin iştirakı ilə 20 Yanvar hadisələrinə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə hadisə zamanı əlil olanlar və şəhid ailələrinin üzvləri ilə görüşlər olmuş, onlara humanitar yardım göstərilmişdir. Yanvarın 20-də RİH Aparatı işçiləri YAP Xəzər rayon təşkilatının və rayon ictimaiyyəti nümayəndələri Şəhidlər Xiyabanını ziyarət etmişlər.

Fevralın 25-də Mərdəkan mədəniyyət sarayında Xocalı Soyqırımının 27-ci ilinə həsr olunmuş anım mərasimi, 26-da isə Xətai rayonundakı "Ana harayı" abidəsinə rayon ictimaiyyətinin nümayəndələrinin ziyarəti təşkil olunmuşdur. Martın 19-da Mərdəkan qəsəbəsi Heydər Əliyev parkında Novruz bayramı şənliyi keçirilmişdir. Şənlikdə təhsil müəssisələri, uşaq bağçaları bayram münasibəti ilə sərgilər nümayiş etdirmiş, konsert proqramı təşkil edilmişdir.

Tədbirdə RİH başçısı, millət vəkili, Heydər Əliyev Fondunun nümayəndəsi, rayonun idarə və təşkilatlarının nümayəndələri iştirak edirdilər.

Mayın 7-də Zirə Mədəniyyət Mərkəzi-EKO parkda ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə tədbir keçirilmişdir.

Ümumiyyətlə 9 May - Qələbə Günü, 28 May - Respublika Günü, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü, 15 İyun - Milli Qurtuluş Günü, 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə geniş tədbirlər həyata keçirilmişdir.

Onu da qeyd edək ki, ölkə başçısının tapşırığına əsasən rayon əhalisinin 73 min 151 nəfəri tibbi müayinədən keçmişdir.

Xəzər rayonunun ərazisində 20 ildən artıq məskunlaşmış qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə ölkə Prezidentinin verdiyi tapşırıqlara əsasən rayon ərazisində yerləşən maşınqayırma pansionatı, Yazıçılar evi, 2 saylı Vərəm sanatoriyası, Bakılı sanatoriyası, Xəzər sanatoriyası, Buzovna vərəm sanatoriyası və bulaq düşərgəsində məskunlaşmış 1600 nəfərdən ibarət 450 ailəyə müasir avadanlıqlarla təchiz olunmuş yeni mənzillər verilmişdir.

Respublika Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva rayona bir neçə dəfə səfərlər etmişlər.

Mehriban xanım Əliyevanın tapşırığına əsasən Heydər Əliyev Fondunun əməkdaşları rayonun qəsəbələrində olmuş mövcud problemlərlə maraqlanmış, sosial obyektlərin bəzilərində təmir işlərinin aparılması və yeni sosial obyektlərin tikilməsi ilə bağlı Tədbirlər Planı hazırlanmışdır.

2019-cu ilin 6 ayı ərzində rayon icra hakimiyyəti Aparatına daxil olmuş ərizə və müraciətlərdən 388 ərizə müsbət həll olunmuş, 1201 ərizəyə lazımi izahat və təkliflər verilmiş, 22 ərizə aidiyyəti üzrə ünvanlara göndərilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 31 iyul 2019-cu ildə keçirdiyi müşavirədə ərazilərdə yaşıllıqların salınması və qorunması, məişət tullantılarının vaxtında yığışdırılması, qanunsuz tikililərin qarşısının alınması, abad məhəllələrin yaradılması, yerli və xarici sərmayədarların cəlb edilməsi ilə yeni sahibkarlıq subyektlərinin açılmasına kömək edilməsi, işıq, qaz, su istilik təchizatı sahəsində ciddi tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar verilmişdir.

Bu və ya digər məsələlər barədə, eləcə də hesabat məruzəsi ətrafında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Xəzər Rayon Şöbəsinin müdiri Firdovsi Bədəlov, Bakı Regional Qaz İstismar Sahəsinin Xəzər rayonu üzrə Texniki İstismar Xidmətinin rəisi Tofiq Əliyev, Əmək və Əhalinin sosial Müdafiəsi Nazirliyinin Müharibə Əlilləri üçün pansionatının direktoru, baş həkim Pərvanə Hacıyeva, "Türkan-Aqro" MMC-nin baş direktoru Tahir İskəndərov, Şura üzvlərindən Sabir Abbasov və Gülbala Qurbanov çıxış etmişlər.

Sonda Şura iclasının qərar layihəsi oxunmuşdur.

**Hazırladı:**
**Kamal İBADOV,**
**"Respublika".**

# GÖRKƏMLİ AZƏRBAYCAN NİZAMİŞÜNASI AKADEMİK HƏMİD ARASLI



**Azərbaycanın görkəmli alimi, klassik ədəbiyyatımızın yorulmaz tədqiqatçısı və naşiri akademik Həmid Araslının əvəzsiz xidmətlərindən biri də onun XX əsr Azərbaycan nizamişünaslığının inkişafına verdiyi qiymətli elmi töhfələrdir.**

Həmid Araslının ilk gənclik dövrü XX əsrin 30-cu illərinə, yəni Azərbaycanda totalitar sovet rejiminin ağır keçid mərhələsinə təsadüf edir. Məlumdur ki, 30-cu illərin sonuna doğru dəhşətli repressiya maşını bir çox ziyalıları, ədəbiyyat xadimlərini kütləvi təqib və məhvə məruz qoyduğu bir dövrdə, sağ qalmağa macal tapanlar Azərbaycan xalqının mədəniyyət və ədəbiyyatını yaşatdılar, tədqiq və təbliğ edərək, gələcək nəsillərə ərməğan etdilər. Bu ağır 1937-39-cu illərdə böyük Azərbaycan şairi Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliği işi ədəbi ictimaiyyətin qarşısında duran əsas vəzifələrdən biri idi.

Hələ gənc yaşlarından klassik Azərbaycan poeziyasının vurğunu olan, xalq ədəbiyyatının incəliklərini dərindən öyrənən Həmid Araslı bu ağır illərdə Nizami Gəncəvinin həyat və yaradıcılığı, tədqiq və təbliği işində mühüm işlər görmüş, öz fəaliyyəti ilə Azərbaycan nizamişünaslığının təşəkkül və inkişafında əhəmiyyətli rol oynamışdır.

Xatırladaq ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının farsdilli nümayəndələrinə münasibət də birmənalı deyildi. Hələ o dövrə qədər Avropa elmi xəbərsiz idi ki, X-XI əsrlərdən başlayaraq, Şərq xalqlarının mədəni inkişaf tarixində müstəsna rolu olan farsdilli ədəbiyyat təkcə iranlılara məxsus deyildir. O, həm də digər müxtəlif sivil xalqların mühüm iştirakı və fəaliyyəti ilə yaradılmış müştərək mədəni sərvətdir və Nizami yaradıcılığı yüksək səviyyəyə qalxmış türk-Azərbaycan mədəniyyətinin zirvə göstəricisidir. Belə bir zamanda yalnız Azərbaycan nizamişünaslarının ağır zəhməti, səyi nəticəsində həqiqət dünyaya yol açdı; Nizami şəxsiyyətinin yetişməsində mühüm rol oynamış milli-mədəni zəmin tədqiqata cəlb olundu və Nizami sənəti Azərbaycan mədəniyyətinin tərkib hissəsi kimi öyrənilməyə başlandı. H.Araslı Nizami yaradıcılığının Azərbaycan xalqının milli mədəniyyəti zəminində formalaşdığını qeyd edərək yazırdı: "...Nizaminin əsas qüvvət və qüdrət mənbəyi şərqşünaslar üçün bu günə qədər məchul olaraq qalmışdır. Hətta şairin əsərlərinə şərh yazan alimlər belə onun əsas qüdrət və qüvvət mənbəyi olan o zamankı Azərbaycan mədəniyyəti ilə, onun adət və ənənələri ilə yaxından tanış olmadıqlarından, şairin ayrı-ayrı ifadə və təşbehlərini, işlətdiyi sözlərin mənasını belə doğru, düzgün izah edə bilməmişlər".

H.Araslının "Nizami və yaradıcılığı" ("Ədəbiyyat" qəzeti, 1939, 24 fevral), "Nizami və qadın obrazları" ("Azərbaycan qadını", 1939, №10), "Yaxın Şərq ədəbiyyatında "Leyli və Məcnun" mövzusu" ("Nizami Gəncəvi" almanaxı, I kitab, Bakı, 1939), "Şairin həyatı" (Bakı, 1940), "Nizaminin müasirləri" (Bakı, 1940), "Nizami əsərlərinin el variantları" (Bakı, 1941), "Nizami Gəncəvi" (Bakı, 1941), "Nizami və vətən" (Bakı, 1942), "Nizami. Həyat və yaradıcılığı" ("Azərbaycan" jurnalı, 1946, №10), "Nizaminin Azərbaycan müaqibləri" ("Nizami Gəncəvi", IV kitab, Bakı, 1947), "Nizami Gəncəvi" (Bakı, 1947) və sair məqalə və kitablarında Nizami Gəncəvinin dövrü, ədəbi mühiti, həyatı və şəxsiyyəti tədqiqat obyektinə çevrildi.

XII əsr Azərbaycan ədəbi-mədəni mühitinin, Nizami müasirlərinin həyat və yaradıcılığının öyrənilməsi, qədim Azərbaycan ərazilərinə dair tarixi mənbələrin tədqiqi və sair məsələlər bu araşdırmaların əsas məqsədini təşkil edirdi.

H.Araslının "Şairin həyatı" (Bakı, 1940) kitabı bir çox tarixi faktları, Nizaminin həyatı ilə bağlı məsələləri özündə əks etdirən, bədii-publisistik dildə yazılmış maraqlı bir işdir. Nizaminin tərcümeyi-halı, onun dövrü, ədəbi mühiti, yaradıcılığı haqqında geniş oxucu kütləsi arasında olan məlumat azlığı alimi belə bir oxunaqlı əsəri yazmağa vadar etmişdi. H.Araslı bu əsərində Azərbaycan şairinin həyatını əhatə edən mühüm tarixi hadisələri, Nizami Gəncəvinin müasirləri, onun həyatının müxtəlif dövrləri, habelə əsərlərinin qısa məzmununu bədii-publisistik bir dil ilə o dövrün oxucusuna çatdırır. Bu əsərdə Nizaminin tərcümeyi-halına dair bir çox məlumatlar, uşaqlığı, Gəncədə baş vermiş zəlzələ təsiredici ştrixlərlə verilmişdir. Belə ki, şairin həyatı ilə bağlı bir çox maqamlar ömürlük yaddaşlara köçürülmüşdür.

Həmid Araslı Nizami Gəncəvi dövrünü və ədəbi mühitini tarixi mənbələr əsasında diqqətlə öyrənmiş, həmçinin şairin özünün əsərlərində həyatı haqqında verdiyi məlumatlardan faydalanmışdır. Alim öz imkanlarını kütləvi təbliğat yolunda sınadı və nəticədə Nizaminin həyatı və dövrünü maraqlı bir üslubda işıqlandırmağa nail oldu.

Görkəmli alim Nizami dövrünü və ədəbi mühitini araşdırarkən, şairin müasirlərinin bu ədəbi kontekstdə rolu, XII əsrdən başlayaraq yaranmış Nizami ənənələrinin bu regionda təsirinin öyrənilməsi və sair məsələləri əhatə etməli olur. Onun "Nizaminin müasirləri" kitabına qüdrətli sənətkarla eyni dövrdə yazıb-yaradan Azərbaycan şairlərindən Əbülüla Gəncəvi, Xaqani Şirvani, Məhsəti Gəncəvi, Qivami Mütərizi, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqaninin həyat və yaradıcılığı haqqında məlumat, qəzəl və qəsidələrindən nümunələr salınmışdı. O, bu işdə Azərbaycan poetika məktəbinə xas olan əsas prinsipləri nəzərdən keçirir, sənətkarların fərdi yaradıcılıq xüsusiyyətlərini araşdırır və belə bir nəticəyə gəlir ki, "Çox qədim tarixi olan Azərbaycan xalqının zəngin irsə malik böyük ədəbiyyatı XII əsrdə əsasən iki xətt üzrə inkişaf edirdi. Bir tərəfdən qədim nümunələri bizə qədər gəlib çatmış olan "Dədə Qorqud" dastanlarında və Mahmud Kaşğarinin "Divanü Lüğat-it Türk" əsərindəki bəzi parçalarda təsadüf etdiyimiz xalq yaradıcılığı yüksəlir, o biri tərəfdən dövrün rəsmi ədəbi dili olan fars dilində yaranan yazılı ədəbiyyat inkişaf edirdi".

H.Araslı nizamişünaslığın bu sahəsinə həsr olunmuş tədqiqatlarını 1947-ci ildə "Nizami Gəncəvi" almanaxında çap etdirdiyi "Nizaminin Azərbaycan müaqibləri" məqaləsində daha geniş və müfəssəl şəkildə davam etdirir. Onun tədqiqatlarının üç mühüm tezis əsasında qurulduğu müşahidə olunur: XII əsr Azərbaycan ədəbi mühiti; fəlsəfi-ictimai, poetik-estetik problemlərin həllində yüksək funksional qaranta, yaradıcılıq meyarına çevrilən Nizami sənəti; şairin əsasını qoyduğu yeni poetik məktəb və onun əsas xüsusiyyətləri. Bu ədəbi məktəbin Azərbaycan ədəbi mühiti çərçivəsində həm farsdilli, həm də türkdilli ədəbiyyatda təsirinin nəzərdən keçirilməsi.

Burada Nizami Gəncəvi mövzusu və üslubunda ilk əsər yazan Azərbaycan şairi Marağalı Əvhədinin "Cami-cəm", Arif Ərdəbilinin "Fərhadnamə", Hacı Məhəmməd Əssarın "Mehr və Müştəri", Marağalı Əşrəfin "Xəmsə"si, Mahmudbəy Salimin "Mehr və Vəfa", "Leyli və Məcnun", Həqirinin, Füzulinin, Zəmirinin, Əndəlib Qaradağinin "Leyli və Məcnun"ları, Məsihinin "Vərqa və Gülşə" əsəri və sair Nizami ədəbi məktəbinə xas məsnəvilər tədqiqata cəlb olunur.

XII əsr Azərbaycan ədəbi məktəbi, həmçinin Nizami və onun müasirləri mövzusunda aparılan işlərdə tarixi-ədəbi materialların düzgün elmi-nəzəri klassifikasiyası, xüsusən janr baxımından, eləcə də forma və məzmunca təsnifatı və sair məsələlərdə nizamişünaslığın müstəqil mövqeyi diqqəti cəlb edir. H.Araslının bu araşdırmaları göstərilən mərhələdə mədhiyyə ədəbiyyatı kimi təqdim olunan Xaqani, Mücirəddin Beyləqani, Əsirəddin Əxsikəti, Zəhir Faryabi, Əbul-Əla Gəncəvi, Fələki Şirvani və başqalarının yaradıcılığının daha geniş aspektdən nəzərdən keçirilməsinə zərurət yaradır.

Ədəbiyyat tarixinə, onun problemlərinə ideoloji yanaşmanın çətinliklərinə baxmayaraq, ilk qəti cəhd aşkar görünməkdədir. Məhz Azərbaycan alimlərinin, o cümlədən H.Araslının səyi və araşdırmaları sayəsində şərqşünaslıqda mövcud bir sıra tezislər öz stabilliyini itirir, Azərbaycan poeziyasında qəsidənin məzmunca növ müxtəlifliyi - mədhiyyə, dini qəsidələr, mərsiyyə növü, sufi-fəlsəfi məzmunlu qəsidələrin mövcudluğu, Xaqaninin "Töhfətül-İraqeyn" əsərinin fəlsəfi qəsidənin yüksək nümunəsi olması və sair məsələlər saray ədəbiyyatı adı altında tanınmış bu zəngin irsə təkcə mədhiyyə - panegirik ədəbiyyat nümunəsi kimi baxmağı bir kənara qoyur.

40-cı illərdə Nizami irsinin sistemli şəkildə öyrənilməyə başlandığı bir dövrdə XII əsr Azərbaycan ədəbiyyatında, eləcə də, Şərqdə uzun müddət poeziya dili kimi işlənən fars dilinin mövqeyi, bu dildə yazıb-yaradan sənətkarların yaradıcılıqları əsasında öyrənilib tədqiq olunur.

Bu məsələdə tarixin öyrənilməsi ön planda idi. Şərq xalqlarının tarixində böyük Səlcuq dövrünün əsas cəhətləri geniş təhlil olunub, XII əsrdə Hindistandan tutmuş Kiçik Asiyaya qədər ədəbi dil kimi işlənən fars dilinin yayılma səbəblərinin aydınlaşdırılmasında şərqşünaslardan Y.N.Marr, A.Y.Yaqubovski, A.Y.Krımski, Y.E.Bertelslə yanaşı, Azərbaycan alimlərinin, o cümlədən Həmid Araslının əməyini qiymətləndirməmək olmaz. Bu alimlərin tarixi xidmətlərinin başlıca cəhəti ondan ibarət oldu ki, Avropanın "İran mədəniyyəti" altında tanıdığı, əslində Yaxın Şərqin, Orta Asiya və Azərbaycanın böyük sənətkarları tərəfindən yaradılan mədəniyyətin mahiyyət və özəlliklərini açaraq, farsdilli ədəbiyyat haqqında dünya şərqşünaslığında yer almış yanlış fikirləri aradan qaldırdılar.

Azərbaycan nizamişünaslarının, xüsusən də Həmid Araslının bu işdə müstəsna payı vardır. Alim öz qarşısına Nizaminin Azərbaycan xalqına bağlılığını konkret faktlarla sübut etmək kimi şərəfli bir məqsəd qoydu: O, Nizami yaradıcılığı və folklor münasibətinin öyrənilməsini, şairin doğma xalqın təfəkkürünə yaxınlığının araşdırılmasını vacib hesab edərək xalq, vətən qarşısında öz övladlıq borcunu ləyaqətlə yerinə yetirdi. Onu xüsusi qeyd etməliyik ki, hələ o dövrdə də dünya nizamişünaslığında göstərilən məsələnin həllində bilərəkdən səhvə yol verən alimlər var idi. Məsələn, məşhur İran alimi Vəhid Dəstgirdi öz araşdırmalarında Nizamini fars mənşəyilə bağlamağa çalışır, əsərlərində özünün türk soykökünü çox aydın şəkildə göstərən şairin fikirlərinə birtərəfli yanaşırdı. İran alimi özünün məşhur "Gəncineyi - Gəncəvi"sində elə hissə qapılırdı ki, Nizaminin vətənpərvərliyindən danışarkən belə, şairin öz əsərlərində sevə-sevə tərənnüm etdiyi doğma vətəni Gəncəyə məhəbbətini bildirən misralarını bir kənara qoyur, tamamilə məsələyə dəxli olmayan mətləblərdən danışır və şairi öz doğma torpağından ayırmağa çalışırdı.

Belə bir zamanda Həmid Araslı Nizami Gəncəvi yaradıcılığında Azərbaycan xalqına xas milli status səviyyəli məsələlərin araşdırılmasını əsas məqsəd və başlıca vəzifə olaraq qarşıya qoyur. Şairin əsərlərinin xalq yaradıcılığı ilə sıx bağlılığını - Nizami şeirinin türkçülük məzmununu, mövzu, süjet, düşüncə tərzi, frazeoloji ifadə və birləşmələr, atalar sözləri və məsəllər, o cümlədən Nizaminin dilində çoxsaylı Azərbaycan sözlərinin işlənməsi və sair məsələləri ciddi tədqiqata cəlb etməklə, elə qiymətli tədqiqlər aparır ki, bu araşdırmalar nizamişünaslıqda günümüzə qədər öz elmi əhəmiyyətini saxlamaqdadır.

Türk soyundan, türk təfəkküründən gəlmə mənəvi duyğular harmoniyası, doğma Azəri türklərinin milli kökündən doğan bu harmoniyanın Nizami yaradıcılığında əksi H.Araslını həmişə düşündürmüş, ilk tədqiqatlarından başlayaraq, bütün ömrü boyu araşdırmalarında bu mövzunun ayrı-ayrı istiqamətlərini öyrənmişdir. Təsadüfi deyildir ki, 1941-ci ildə Bakıda nəşr olunan "Nizami əsərlərinin el variantları" kitabına yazdığı müqəddimədə H.Araslı Azərbaycan xalq ədəbiyyatı xəzinəsində Nizaminin şəxsiyyəti, qəhrəmanları və əsərlərinin süjetləri ilə bağlı materialların toplanmasını nizamişünaslığın mühüm vəzifələrindən hesab edir və bu materialların "... müxtəlif variantlarının müqayisə və təhlilinin istər şairin şəxsiyyəti, istərsə də onun doğma xalqı ilə münasibətini təyin etmək üçün ən mühüm tədqiq obyekti" olduğunu söyləyirdi.

Bir qədər sonra H.Araslı "Nizamidə xalq sözləri, ifadə və zərbməsəlləri" (SSRİ EA Azərbaycan filialının "Xəbərləri", Bakı, 1942, №8) və "Nizami və Azərbaycan xalq ədəbiyyatı" ("Nizami Gəncəvi, IV kitab, Bakı, 1947) məqalələrində bu məsələləri araşdırır, Nizaminin yetişib püxtələşdiyi mühitin əsas xüsusiyyətlərini, onun doğma xalqı ilə bağlılığını və sair məsələləri izah etməyə çalışır. Onun araşdırmaları sübut edir ki, Nizaminin yaşadığı mühit xalq təfəkkür tərzinə əsaslanan dastanlar, əfsanələr söyləyən ozanlarla ərəb və fars dilində yazan şairlərin qarşılıqlı fikir mübadiləsini özündə birləşdirirdi. Alimin gəldiyi nəticəyə görə, o dövr Azərbaycanda mövcud olan belə bir zəngin ədəbi mühit sənətkar Nizaminin yaradıcılığında mühüm rol oynamışdır.

Tədqiqatçı Nizami sənətinə xalqdangəlmə mövzu və süjetləri araşdırır, şairin poemalarının xalq yaradıcılığı ilə bağlı əlamətləri aşkar edir. Müqayisələrin aparılması üçün real əsas olduğunu ilk dəfə hiss edən H.Araslı Nizami və Azərbaycan xalq dastan və nağılları paralellərində xeyli tədqiqatlar aparmışdır ki, onlar bu gün də nizamişünaslığın qiymətli araşdırmalarından sayılır. Müəllif "Kitabi-Dədə Qorqud" dastanlarının bəzi boylarını Nizami poemalarının ayrı-ayrı hissələri ilə müqayisə edir. Bunlardan "Xosrov və Şirin" poemasının başlanğıcını, yəni Xosrovun doğulması ilə "Kitabi-Dədə Qorqud"dakı "Baybura oğlu Bamsı Beyrək" boyundakı "Beyrəyin doğulması" hissələrini tutuşduraraq, Nizaminin bütün poemalarında xalq dastanlarında bir sıra xüsusiyyətinin - qəhrəmanın ata-ananın tək övladı olub qəhrəmanlıqla doğulması faktının saxlanmasını xüsusi qeyd edir.

Dastan qəhrəmanlarının əsas xarakterik xüsusiyyətlərinin Nizami əsərlərindəki obrazlara sıx bağlılığını göstərən tədqiqatçı yazır: "Onlar bəzən fiziki (Beyrək, Buğac, Şah İsmayıl və sair), bəzən söz qüvvəsi (Qərib, Kərəm, Novruz və sair) bəzən də əql və tədbir (İlyas) vasitəsi ilə mübarizə edir. Müasirlərindən seçilir, sədaqəti, gözəlliyi, qəhrəmanlığı, əql və mərdliyi ilə üstünlük qazanırlar. Bunlar sevgidə də sadiq, qəhrəman və namuslu olurlar". Nizaminin bütün bu xüsusiyyətləri öz qəhrəmanlarına şamil etməsini onun xalq ruhuna bağlı olması, zəngin türk mənəviyyatını ifadə etməsi ilə ələqələndirən H.Araslı hələ o dövrdə orta əsrlərin bütöv Şərq ədəbiyyatı zənginliyində struktur, süjet, obrazların ayrı-ayrı xüsusiyyətləri fonunda milli bədii ədəbiyyatların inkişafını izləməyə və bu sahədə həlledici işlər görməyə nail olur.

Ümumiyyətlə, Şərqin mənəvi materialları içərisindən yerli ənənələri seçib ayırmaq, mürəkkəb bədii struktur və məzmun daxilində türk xalqına məxsus spesifik xüsusiyyətləri öyrənmək mürəkkəb məsələdir. Nizami özü də "Xəmsə" də bəzi taleyüklü məsələlərə açıq-aydın münasibət bildirmiş, öz möhürünü bütün əsərlərinə əbədi həkk etmişdir. Əslində obyektiv, öz xalqının milli şüuruna bələd olan tədqiqatçı üçün bu problemin araşdırılması elə bir çətinlik törətmir. Lakin artıq yuxarıda qeyd etdiyimiz kimi, təhrifləri aradan qaldırmaq üçün daha geniş tədqiqat və daha incə mətləblərin çözülməsi lazım gəlirdi. Bu baxımdan, H.Araslının "Nizaminin qadın obrazları" adlı silsilə məqaləri diqqəti cəlb edir.

Alim mənbələr və ədəbi nümunələr əsasında, ənənəvi Şərq psixologiyasını və özəl əlamətlərilə seçilən türk milli düşüncə tərzini qarşılaşdırır. Burada ən maraqlı və incə məqam Nizami sələflərinin - Firdovsi və Sənainin Nizamidən fərqli olaraq, qadına münasibətdə qeyri-sivil mövqe tutmalarının nəzərə çatdırılmasıdır. Firdovsinin "Şahnamə"də: "Qadın və əjdaha hər ikisi yer altında yaxşıdır. Dünya bu iki napakdan pak olsa yaxşıdır" ifadəsini, həmçinin Sənainin "Hədiqətül-həqayiq" əsərində qadın ləyaqətinə xələl gətirən sözlərin işlənməsi faktını nümunə gətirən tədqiqatçı göstərir ki, "Azərbaycanlılar tarixən kişiyə "ər kişi", qadına isə "xatın kişi" söyləyərək, onu uca tutmuşlar. Farsların "zən", yeni "vur" - deyə adlandırdıqları qadın Azərbaycan şəraitində cəmiyyətin hörmətli üzvü olmuşdur. Midiya, alban ordularında Babək hərəkatında qadınların fəal iştirakını bütün Şərq və Avropa tarixçiləri qeyd edir" - deyə alim "Dədə Qorqud" dastanı və Nizaminin "Yeddi gözəl" əsəri üzərində qurulmuş müqayisələr əsasında şairin genetik erudisiyaya bağlı yanaşma üsulunu, türk milli dünyagörüşü zəminində formalaşan fərdi düşüncə tərzini, Şərqin mürtəce ənənələrindən seçilən orijinal baxışlarını göstərir.

Alim "Nizami yaradıcılığı və Azərbaycan şifahi xalq ədəbiyyatı" mövzusuna həsr olunmuş tədqiqlərini Nizami yaradıcılığında poetik obraz sisteminin tərkib hissələrindən biri olan atalar sözləri və aforizmlərin araşdırılması ilə yekunlaşdırır. Müəllif çoxəsrlik tarixi olan Azərbaycan aforizmlərinin - "Doşab almışam, bal çıxıb", "Ev oğrusunu tutmaq olmaz", "Əyri oturaq, düz danışaq", "İsinmədim istisinə, kor oldum tüstüsünə", "Ot kökü üstə bitər", "Pişik balasını istədiyindən yeyər", "Saman altından su yeridir", "Özgəsinə quyu qazan özü düşər", "Heç kəs öz ayranına turş deməz", "İlanı özgənin əlilə tutur", "Qaradan artıq rəng olmaz", "Söyüd ağacı bar gətirməz" və sair bu kimi şifahi ədəbiyyatımızın stabil xarakterli unikal frazalarının Nizami yaradıcılığında dəqiqliklə işlənməsinə milli təfəkkürün ifadəsinin əsas atributlarından biri kimi yanaşır və haqlı olaraq bir mühüm məsələni vurğulayır ki, Azərbaycan xalqına xas bu özəl frazeoloji birləşmələri çox vaxt İran və Avropa tədqiqatçıları başa düşə bilmir, nəticədə, şairin gözəl misraları bu alimlər tərəfindən səhv şəkildə şərh olunur.

Alimin Avropa və İran alimlərinin fikirlərinə elmi paradoks təşkil edən çoxsaylı mülahizələri vardır. Onların birinin - "İskəndərnamə" əsərində "Əz an piş karət şəbxun sazd; Çü dürrac dər dəh səlayi-kəbab" - fikrinin H.Araslı tərəfindən izahına diqqət yetirək: "Beytin mənası budur ki, çalış ki, turac kimi kababluqdan xəbər verəsən. Şairin bu misralarını şərhçilər başa düşə bilmir və yanlış izah edirlər. Nə üçün turac kababluqdan xəbər versin, - sualına cavab verən yoxdur. Biz Azərbaycan xalqının turacın oxumasına verdiyi mənanı öyrənəndə bu beyt tamam aydın olur. Xalq arasında turacın oxumasının ahəngi nə görə, aşağıdakı sözləri dediyi söylənilir: "Dad məni tutdular, etimi kabab etdilər", - Nizami bundan istifadə edib göstərir ki, sən də turac kimi ölümünü qabaqcadan xəbər ver."

Qeyd edək ki, xalq ədəbiyyatı və Nizami irsinə dərindən bələd olduğu üçün bu sahədə klassik təhlillər aparmağa nail olan H.Araslının araşdırmaları nizamişünaslıqda bu gün də mühüm əhəmiyyət daşıyır.

Nizami Gəncəvinin fəlsəfi görüşlərinin izahında da H.Araslının özünəməxsus yanaşmaları var idi. Şairin son dərəcə mütərəqqi fikirlər məcmusu olan "Sirlər xəzinəsi"nin sırf sufi, yəni o zaman bir sıra Avropa alimlərinin təqdim etdiyi asket məzmunlu bir əsər kimi qiymətləndirilməsi H.Araslının əks-rəyinə səbəb olmuşdur. O, "Sirlər xəzinəsi" əsərinin Sənainin "Hədiqətül-həqayiq" əsərinin sırf təsirilə yazılmış sufiyanə bir əsər olduğu fikrini qəbul etmir, tutuşdurmalar apararaq, Nizaminin əsərlərindəki təriqətə aid termin və ifadələri şairin öz fəlsəfi fikirlərini ifadə etmək üçün yalnız ədəbi priyom olduğunu göstərir. Müəllifə görə, Nizami xilqət, insanın yaranması, dünyanın vəfasızlığı sərlövhəsi ilə verilən məqalələri, nəcib insani sifətləri təbliğ etmək və pisliklərdən uzaqlaşmağın mümkün və zəruri olduğunu söyləmək məqsədi ilə yazmışdır. Bununla belə, alim öz araşdırmalarında şairin Gəncədə fəaliyyət göstərən əxi təşkilatına yaxın olmasını da təsdiqləmişdir.

Görkəmli alim Nizami poeziyasının sənətkarlıq məsələləri üzərində də dayanmışdır. O, öz araşdırmalarında Firdovsi - Nizami qəhrəmanları paralellərində müqayisələr aparmış və belə nəticəyə gəlmişdir ki, Nizami Firdovsidən fərqli olaraq, bir sıra canlı, dərin psixoloji surətlər yaratmış, insanın mənəvi təkmilləşmə prosesini izləmişdir. Şirin surətinin Dantenin Beatriçe obrazı ilə müqayisəsi xüsusi maraq doğurur. Alimin müqayisəli təhlilindən aydın olur ki, Dantenin Beatriçesi bəzi xüsusiyyətləri ilə Şirin surətini xatırladır, o da öz sevgilisinə doğru yol göstərir, onu yüksəklərə, səadətə çatdırır. Lakin alimin fikrincə, mühüm bir fərq Nizami qəhrəmanını bir fərd kimi yüksəldir. "Nizaminin Şirini həyat qızıdır, həqiqət və məhəbbət rəmzidir", "Beatriçe isə ilahiyyatın, teologiyanın mücəssəməsidir", - deyən alim həm də belə qənaətə gəlir ki, Dantenin İlahi komediyasında olan mistika Nizami poemasındakı dərin həyat fəlsəfəsi ilə müqayisə edilə bilməz.

H.Araslı Nizaminin epik janrda novatorluğu məsələlərinə də diqqət yetirmişdir. Bu orijinallıqları göstərmək üçün o, Nizami poemalarının süjetlərini "Dədə Qorqud" dastanının bəzi süjetləri ilə bağlayır. O, Nizami süjetlərinin bitkinliyinə, onların mükəmməl işləndiyinə xüsusi diqqət yetirir. Nizaminin arabir Firdovsi süjetlərindən istifadə etməsinə baxmayaraq, yeni, bitkin, maraqlı süjet qurduğunu, əsərlərinin canlı kompozisiya ilə seçildiyini yazır. Alimin araşdırmalarında belə məlum olur ki, Azərbaycan ədəbiyyatında ilk mənzum roman müəllifi olan Nizami o dövrə qədər yayılmış olan süjetlərdən məharətlə faydalanmışdır.

H.Araslı Nizaminin epik poema janrı quruluşunda etdiyi dəyişiklikləri də qeyd etmişdir. Məlumdur ki, XX əsrdə Avropa alimləri çox zaman bu məsələdə yanlış mövqe tuturdular. Belə ki, bəzən Nizaminin poeziyaya gətirdiyi orijinallığı inkar olunur, onun qiyməti lazımınca verilmir, fikir ayrılıqları mövcud idi. Məsələn, İ.Pitsiyə görə, Nizamidə epos alınmır. "...Onun qəlbi epik olmaqdan ziyadə lirik olmuşdur". Başqa bir ingilis alimi Q.Auzliyə görə isə, "Nizami Şərqin ən böyük epik şairidir". Göründüyü kimi, Avropa şərqşünaslığında fikir ayrılığı özünü göstərirdi. Bundan əlavə, epik janr dedikdə, göstərilən mərhələdə Nizami şeiri ən çox Firdovsi poeziyası ilə müqayisə olunurdu.

Belə bir zamanda Həmid Araslı Azərbaycan şairi Nizami Gəncəvi və özbək şairi Əlişir Nəvai, eləcə də Əmir Xosrov Dəhləvi, Məktəbi, Hatifi, Füzuli əsərlərinin müqayisəsi fonunda silsilə araşdırmaları ilə dünya nizamişünaslığına yeni töhfələr verdi. "Əlişir Nəvai" ("Ədəbiyyat" qəzeti, 30 yanvar 1939, s.3-5), "Nəvai və Azərbaycan ədəbiyyatı" ("Revolyusiya və kultura" jurnalı, 1940, N 7, s.83-94), "Nizami və Nəvai" ("Ədəbiyyat" qəzeti, 6 sentyabr 1940), "Şərqdə Leyli və Məcnun" əsərləri" ("Nizami" almanaxı, I kitab, Bakı, Azərnəşr, 1940, s.194-237), Şərqdə "Leyli və Məcnun" teması ("Nizami" almanaxı, II kitab, Bakı, Azərnəşr, 1940, s.86-105), "Yeddi gözəl" və "Yeddi cam" əsərlərinin müqayisəsi ("Nizami" almanaxı, III kitab, Bakı, Azərnəşr, 1941, s.70-90.), Nizami müaqiblərindən Əssar Təbrizi ("Ədəbiyyat" qəzeti, 1947, 12 mart), "Əlişir Nəvai yaradıcılığı" (Nəvai-500), "İnqilab və Mədəniyyət", 1948, №5, s.50-63), "Fərhad və Şirin", Müqəddimə. (Nəvai Ə."Fərhad və Şirin", Bakı, Azərnəşr, 1948, s.5-13) və sair işlərində Həmid Araslı Nizami Gəncəvinin Şərqdə epik janrın inkişafında oynadığı mühüm rolu göstərməyə çalışırdı.

H.Araslının Azərbaycan nizamişünaslığında xidmətlərindən biri də Nizami Gəncəvi əsərlərinin tərcümə və nəşri sahəsində olmuşdur. Bu sahədə görülən işlərdən "Nizami. Lirika" (sətri tərcümə, tərtib, müqəddimə və şərhlər H.Araslı, Bakı, 1940) kitabını göstərə bilərik.

1940-cı ildə ilk dəfə işıq üzü görən bu "Lirika" kitabı sonrakı dövrlərdə, əsas baza həmin ilk tərcümələr olmaqla, "Azərnəşr" və "Gənclik" nəşriyyatı tərəfindən bir neçə dəfə çap olunmuşdur. Həmid Araslının sətri tərcümələri və redaktəsi əsasında yaranan bu ilk poetik tərcümələrdə Nizami şeirinin dərin, lakin sadə və gözəl ifadə olunan fəlsəfi mənaları, sənətkarlığı müəyyən dərəcədə ifadə olunub xalqa çatdırılmışdır. Bu kitab Nizami "Divanı"nı bütöv şəkildə əks etdirməsə də, görülmüş iş son dərəcə əhəmiyyətli idi. Kitabın müqəddiməsində H.Araslı haqlı olaraq yazır: "Oksford, Berlin, Qahirə və Hindistan kitabxanalarında "Nizami Divanı" adlanan əlyazmaları vardır. Lakin bu vaxta qədər bu əlyazmaları tədqiq olunub çap edilmədiyindən şairin qəzəlləri elm aləminə bütünlüklə tanına bilməmişdir". Qeyd edək ki, Nizami "Lirika"sının ilk poetik tərcüməçiləri - Əliağa Vahid, Cəfər Xəndan, Nigar Rəfibəyli, Mirvarid Dilbazi və Osman Sarıvəlli kimi gözəl şairlərimiz olmuşlar.

Nizaminin ilk "Lirika" kitabına qəzəllərdən əlavə, şairin qəsidələrindən də nümunələr daxil edilmişdir. Nizami Gəncəvinin fəlsəfi dünyagörüşü, ictimai-xəlqi fikirləri, şəxsiyyəti, sənətkarlığı haqqında oxucuda kifayət qədər təsəvvür yaradan bu tərcümələr indiyədək öz əhəmiyyətini saxlamaqdadır.

H.Araslının müstəsna xidmətlərindən biri də 1943-1944-cü illərdə nəşr olunmuş iki cildlik "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi"nin 1-ci cildində yer alan "Nizami Gəncəvi" oçerkidir. Alim 1960-cı ildə nəşr olunan üç cildlik "Azərbaycan ədəbiyyatı tarixi" kitabında Nizami Gəncəvinin həyat və yaradıcılığını əhatə edən bu oçerki daha da genişləndirmiş, Nizami Gəncəvinin tərcümeyi-halı və ədəbi irsi haqqında müfəssəl məlumat vermişdir.

Alim öz araşdırmalarını Azərbaycan nizamişünaslığının sonrakı mərhələlərində də yorulmadan davam etdirmiş, əsərlərini Bakıda və bir sıra xarici ölkələrdə nəşr etdirmişdir. Nizami Gəncəvi. "Sirlər xəzinəsi" (müqəddimə), Bakı, Azərnəşr, 1953, s.5-9., Nizami Gəncəvi. Qəzəllər (müqəddimə), Bakı, Azərnəşr, 1953, s.3-14., Nizami Gəncəvi. Poemalardan parçalar (müqəddimə), Bakı, Uşaqgəncnəşr, 1954, s.5-18), Nizami Gəncəvi. "Xosrov və Şirin" (müqəddimə), Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1962, s.3-18., "Cami və Azərbaycan ədəbiyyatı" (Əbdürrəhman Caminin anadan olmasının 550 illiyi münasibətilə) "Ədəbiyyat və incəsənət", 1964, 12 dekabr, Nizami poeziya günləri qarşısında. "Ədəbiyyat və incəsənət", 1979, 20 may, Nizami Gəncəvi. "Xosrov və Şirin" (müqəddimə), Bakı, Elm, 1981, s.5-23, Nizami və Şərq ədəbiyyatı (Nizami Gəncəvinin anadan olmasının 840 illiyi münasibətilə) Azərbaycan EA Xəbərləri, Ədəbiyyat, dil və incəsənət seriyası, 1981, №4, s.3-9., Ölməz məhəbbət dastanı. Nizami Gəncəvi. "Xosrov və Şirin" (müqəddimə), Bakı, Yazıçı, 1982, s.5-17 və başqa işlərində ölməz şairin həyatı, yaradıcılığı, sənətinin təsir dairəsi ətrafında elmi tədqiqatlar aparmışdır.

Görkəmli alimin elmi əsərləri dünyanın bir çox ölkələrində, o cümlədən Moskva, Ankara, Kabil, Daşkənd, Tiflis, Bağdadda və başqa şəhərlərdə dəfələrlə nəşr olunmuşdur.

H.Araslı ömrünün sonuna qədər öz amalları yolunda, Nizami Gəncəvinin həyatının, şəxsiyyət və yaradıcılığının mükəmməl araşdırılması uğrunda çalışdı. XX əsrin 80-ci illərində Türkiyə arxivlərində şairin vəqfinə dair xüsusi mülkiyyəti təsdiq edən sənədin tapılması ilə əlaqədar H.Araslı "Nizami vəqfi haqqında yeni sənəd" adlı məqaləsində məlumat verir, şairin həyatı haqqında o dövrə qədər mövcud bir çox dolaşıqlara son qoyaraq yazırdı: "Nizami öldükdən sonra qəbri ziyarətgaha çevrilmiş, onun öz kəndinin gəlirlərindən başqa bizə məlum olmayan hökmdarlar və ya bivaris ölən adamlar tərəfindən bu məqbərəyə vəqflər edilmişdir. XVI əsrdə bu məqbərə çox gəlirli vəqfi olan, gəlib-gedənlərə və yoxsullara hər gün yemək verən, müdərrisləri təmin edən bir xeyriyyə ocağı olmuşdur".

Akademik Həmid Araslı əsl elm fədaisi, dünyada tanınan nüfuzlu alim, öz doğma xalqının ədəbiyyat və mədəniyyətinin tükənməz bilicisi və təbliğatçısı idi. O, Azərbaycanın dahi klassiklərinin, o cümlədən Nizami Gəncəvi irsinin dünyada tanınmasına yorulmaq bilmədən bir ömür sərf etmişdi. Türk alimi Hüseyn Ayan onun Azərbaycan ədəbiyyatının tədqiq və təbliğində rolunu yüksək qiymətləndirərək belə yazmışdır: "Əğildiği ilmi mevzularda vardığı neticeleri, "kendine saklamayan" Hamid Araslı, milli ve milletlerarası kongre ve konferanslara götürüp ilim alemine sunmuştur".

Türk dünyasının böyük istedad alimi Həmid Araslının ruhuna Allahdan rəhmət diləyirik!

**Zəhra ALLAHVERDİYEVA,**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent.**

*Milli qəhrəmanlarımız*

# Sərhədlərimizin igid keşikçisi



**Ulu diyar, Cahanın naxışı adlanan Naxçıvan! Bu məkanın insanları sinəsini sipər edib doğma torpağını qoruyan qəhrəmanları ilə həmişə öyünüblər. Xalq qəhrəmanı Babək burada azadlıq bayrağını qaldırıb, yurdunu düşmənlərdən qoruyub. Babək qalası da, bu torpaqda nəsillərə ərməğan olub. Ərən oğullar at oynadıb, qılınc çalıblar, nərələri ərşə ucalıb. Vətəni igidliklə qoruyublar. Hər daşında, qayasında onların qəhrəmanlığının izi var. Düşmən qərinələr, əsrlərlə bu torpağa ayaq basa bilməyib. Belə igid oğullarımızdan biri də Əmiraslan Əliyevdir.**

Qəhrəmanımız Əmiraslan Əliyev 1960-cı ildə Naxçıvan şəhərində dünyaya göz açıb. Atası Rza kişi, anası Solmaz xanım onu vətənpərvər, əməksevər ruhda tərbiyə ediblər. Əmiraslan hələ məktəbdə təhsil aldığı illərdə xalqının qəhrəman oğullarının həyat yolunu öyrənməyə maraq göstərib. Müdiriklərin: "Xalqı xoşbəxt eləyən iki amil var: biri məhəbbətdir, o biri azadlıq", — sözləri Əmiraslanın gənc yaşlarından qəlbini nura boyayıb. Doğma yurdu üçün hər an fədakarlıq göstərmək arzusunda olub. Xalqının tarixinə yaxşı bələd olmaq, Vətənin sərhədlərini göz bəbəyi kimi qorumaq qəlbinın ülvi istəyinə çevrilib. Əmiraslan orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Burada o, özü nizam-intizamı, bacarığı ilə başqalarına nümunə olub. O, Polşada hərbi çevrilişin yatırılmasında iştirak edib. Hərbi xidməti başa çatdırdıqdan sonar doğma elinə qayıdıb. Naxçıvanda tikinti sahəsində çalışıb. Burada ucaldılan çoxsaylı binaların daşında əllərinin izi qalıb. İstehsalatda çalışsa da həmişə ali təhsil almaq haqqında düşünüb. Bu məqsədlə də Naxçıvan Dövlət Universitetinin tarix fakultəsinə daxil olub. Təhsil illərində qərinələrdə şöhrətlənən ulularn qəhrəmanlığını, qədim keçmişini həvəslə öyrənib. Xalqın azadlığı, müstəqilliyi yolunda həyatlarını qurban verənlərin amalına, qayəsinə böyük ehtiramla yanaşıb. Vətənini sevməkdə və təəssübkeşlikdə onlara bənzəmək istəyində olub.

Azərbaycan ikinci dəfə müstəqilliyinə nail olanda görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin təşəbbüsü və səyi sayəsində Cənub sərhədlərimiz - Naxçıvan MR-ın Araz çayı ərazisi milli əsgərlərimiz tərəfindən qorunmağa başlandı. Sovet əsgərləri sərhədlərimizdən çıxarıldı. Naxçıvan sərhəd dəstəsinin komandiri Cahangir Qulamov Əmiraslan Əliyevi sərhəd dəstəsinə işə qəbul etdi. Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanan Əmiraslan bundan qürur duyur, komandirin tapşırıqlarını can-başla yerinə yetirdi. Hərbi xidmətdə sıravi əsgər olduğu illərdəki kimi, sərhəd dəstəsində də özünü cəsur, qorxmaz və iradəli vətən oğlu kimi göstərdi. Bu yerlərin sərt iqliminə, qışın şaxta-çovğununa, yayın qızmar günlərinə dözməyi bacardı. Sərhəd pozuçularına, təxribatçılara, qaçaqmaqçılara qarşı mübarizə apardı. Zabit Əmiraslan sərhədçi həyatının qanunlarına yaxından bələd oldu. Kollektivin hörmət və nüfuzunu qazandı. Zabit dostları və sərhədçi əsgərlər onu sevdilər.

Sərhəd dəstəsinin komandiri zabit Əmiraslanın nümunəvi xidmətini, sərhəd döyüşçülərinin vətənpərvərlik ruhunda tərbiyəsində göstərdiyi səyi yüksək qiymətləndirdi. O, fəxri fərmanlara və mükafatlara layiq görüldü. Əmiraslan Əliyev istetadlı, qabiliyyətli və mətanətli sərhədçi zabit çoxlarından özəllikləri ilə olması ilə fərqləndi. Ona Naxçıvan Sərhəd Dəstəsinin qərargahında daha məsul vəzifə tapşırıldı. Dəstənin komandiri, mayor Sahib Mirzəyev Əmiraslandan söz düşəndə ondan ürəkdolusu danışır:

- Əmiraslan igidliyi, cəsarəti ilə zabit yoldaşları, eləcə də sərhədçilərimiz arasında böyük nüfuz qazanıb. Hərbi intizamı həmişə gözləyir, gecə-gündüz sərhədi qoruyan əsgərlərə baş çəkir, onlarla birlikdə sərhədlərimizi qorumağı vətən oğlu olaraq özünün mənəvi borcu hesab edir.

17 mart 1995-ci il. Əmiraslan Əliyev eşidir ki, Bakıda qiyamçılar öz Vətəninə, bacı-qardaşlarına xəyanət edərək üstlərinə silah qaldırıblar. Satqın qiyamçılar, xarici ölkələrdən dəstək alanlar dövlət çevrilişi etmək, dahi şəxsiyyət Heydər Əliyevə qarşı təxribat törətmək istəyirlər. O, sərhədçi döyüş dostları ilə özünü Bakıya yetirdi. Onlar ölkəmizin müstəqilliyinə qəsd etmək istəyən xəyanətkar dəstə ilə vuruşdular. Əmiraslan bu döyüşdə istiqlalımızı, dövlətimizin müstəqilliyini qorumaq naminə qəhrəmanlıq göstərərək həyatını qurban verdi, şəhidlik zirvəsinə ucaldı. Görkəmli dövlət və siyasi xadim Heydər Əliyevin fərmanı ilə Əmiraslan Rza oğlu Əliyevə göstərdiyi şücaətinə görə Milli Qəhrəman fəxri adı verildi. Onun qəhrəmanlığı, vətənə olan sevgisi, ölkəsinin suverenliyini qorumaq məsləki gənc nəslin vətənpərvər ruhda tərbiyə olunmasına əsl nümunədir.

Naxçıvan şəhərində Milli Qəhrəman Əmiraslan Əliyevə abidə qoyulub. Naxçıvan Sərhəd Dəstəsinin bir zastavasına onun adı verilib, qərargah binasında, vaxtilə təhsil aldığı orta məktəbdə Milli Qəhrəmana həsr edilən guşə yaradılıb. Əmiraslan Əliyevin xatirəsi həmişə yad edilir. Bi məqsədlə keçirilən tədbirlərdə keçdiyi həyat yolundan, igid sərhədçi olmasından, dostluğa sədaqətindən və vətənpərvərliyindən söhbət açılır, qəhrəmanlığı xatırlanır. Bu, onu göstərir ki, Əmiraslan Milli Qəhrəman kimi, əsl vətən oğlu olaraq xalqın qəlbində dan ulduzu tək həmişə parlayacaq. Xatirəsi əziz tutulacaq.

**Arif HƏBİBİ,**
**Əməkdar jurnalist.**

# Depoda keyfiyyətli təmir işləri həyata keçirilir



**Son illər Azərbaycanın dəmir yolu sahəsi özünün ən yüksək inkişaf dövrünü yaşamaqdadır. Bu sahədə təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş köklü islahatlar dəmir yolunda yeni bir dönəmin başlanğıcına səbəb olmuşdur. Bu gün Azərbaycanın dəmir yoluna olan dövlət qayğısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sahənin ən müasir dünya tələblərinə cavab verməsi üçün həyata keçirdiyi məqsədyönlü işlər öz müsbət bəhrəsini verməkdədir.**

Qeyd etmək lazımdır ki, ötən son üç ildə bu sahədə aparılan məqsədyönlü mühüm tədbirlər ölkə dəmir yolunun simasını tamamilə dəyişmiş, bu sahədə yeni bir tərəqqi və müasirləşmə dönəminin başlanğıcına səbəb olmuşdur. Yüksək inkişaf tempi dəmir yolunun bütün strukturlarında özünü bariz şəkildə göstərir. **Azərbaycan Dəmir Yolları QSC-nin Yükdaşımaları Departamentinin Cənub Vaqon Deposunun rəisi Kamran Eyyubovla** görüşüb 2019-cu ilin ötən 7 ayında görülən işlər və digər məsələlər barədə söhbət etdik.

Kamran Eyyubov vurğuladı ki, son illər ölkənin dəmir yolu sektorunda həyata keçirilən təmir-tikinti, yenidənqurma işlərinin həcmi olduqca böyükdür. Ötən son üç il müasir standartlara cavab verən ən son texnologiyaların tətbiq olunması ilə diqqəti cəlb edir. Bü dövr ərzində yol təsərrüfatının sağlamlaşdırılması, vaqon və lokomotiv parkının yeniləşməsi, işarəvermə və rabitə sisteminin müasir tələblər səviyyəsində olması üçün yeni avadanlıqların alınması və digər mühüm tədbirlər uğurla həyata keçirilmişdir. Bundan başqa yük daşımalarına olan tələbatın ödənilməsi, xidmət səviyyəsinin daha da yüksəldilməsi, əlavə yüklərin cəlb olunması və daşımaların mənzil başına vaxtında, təhlükəsiz olaraq çatdırılması üçün texniki vasitələrin yeniləşdirilməsi də təmin olunmuşdur. Azərbaycan DY QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi ilə dəmir yolunun müasir dünya tələbləri səviyyəsində olması məqsədilə qarşıya qoyulmuş bütün məsələlər yüksək keyfiyyətlə icra olunur, dəmir yolunun ayrı-ayrı müəssisələrində əsaslı təmir-tikinti, yenidənqurma işləri yüksək səviyyədə aparılır.

Onu da qeyd etmək lazımdır ki, son illər Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin dəmir yolunda yük və sərnişindaşımalarında tranzit potensialının böyük həcmdə artırılması istiqamətində də işlər uğurla davam etdirilir, beynəlxalq əhəmiyyətli layihələr reallaşdırılır. Bunlardan Bakı-Tbilisi-Qars, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və "Şərq-Qərb" dəhlizlərini göstərmək olar. Bu dəhlizlər ölkəmizə yüksək iqtisadi mənfəət gətirəcək və bu dəhlizlərdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq.



Azərbaycan Dəmir Yolları QSC-nin Yükdaşımaları Departamentinin Cənub Vaqon Deposunun kollektivi də son dövrlər öz işlərini müasir tələblərə uyğun qurmuşdur. Deponun əsas iş fəaliyyəti yük vaqonlarının depo və cari təmir edilməsindən və eyni zamanda hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə yük vaqonlarına texniki xidmət göstərilməsindən ibarətdir. Hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Cənub Vaqon Deposunun 5 texniki xidmət məntəqəsi və 11 nəzarət məntəqəsi 24 saat ərzində (növbəli) fəaliyyət göstərir. 2019-cu ilin 7 ayı ərzində 115 müxtəlif tipli vaqon depo təmiri və 175 müxtəlif tipli vaqon isə cari təmir edilmişdir. Ötən 7 ay ərzində 281128 vaqona texniki xidmət döstərilmişdir. 3153 vaqon isə tranzit və yerli yüklərə verilmişdir. Vurğulayım ki, təmir işlərinin yüksək keyfiyyətlə aparılması üçün hər cür şərait və peşəkar, öz işini bilən yüksək hazırlıqlı kadr potensialı mövcuddur. Ötən 7 ayda iqtisadi göstəriciləri yüksək olan əmək kollektivimiz çalışır ki, cari 2019-cu ili yüksək göstəricilərlə başa vursun, ölkənin polad magistralının inkişafına öz layiqli töhfəsini versin. Bunun üçün Azərbaycan DY QSC-nin rəhbərliyinin bizə hər cür dəstəyi, diqqət və qayğısı var.

**Əli SADIQOV,**
**"Respublika".**

# Azercell korporativ müştəriləri üçün yeni "Biznesim İnternet Xətti" xidmətini təqdim edir

**"Azercell Telekom" MMC korporativ müştəriləri üçün yeni nəsil "Biznesim İnternet Xətti" xidmətini istifadəyə verib. Etibarlı və yüksəksürətli internet bağlantısı vasitəsilə Azercell müştərilərinə rəqəmsal dünyada öz bizneslərini hər zaman onlayn saxlamağa yardım edəcək.**

"Biznesim İnternet Xətti" xidməti sayəsində korporativ müştərilər internet bağlantısını bölüşmək və ya istehlakçı trafiki ilə rəqabət aparmaq məcburiyyətində qalmayacaq.

Şirkətin işləri daima etibarlı internet bağlantısını tələb edən veb-saytın idarə edilməsi və ya onlayn satışlar, IP üzərindən Səs (Voice over IP) xidmətləri, bulud tətbiqləri və ya iri həcmli fayl köçürmələri ilə əlaqədardırsa, o zaman "Biznesim İnternet Xətti" xidməti ən ideal seçimə çevriləcək. Daimi bağlantını təmin etmək üçün standart və şərti təhlükəsizlik seçimlərinin təklif olunduğu xidmətin bir sıra üstünlükləri var:

- **Ehtiyacınız olan sürət**

5Mb/s, 10Mb/s, 15Mb/s, 20Mb/s, 30Mb/s, 50Mb/s və ya 100Mb/s paketlərindən korporativ müştərilər biznesləri üçün ən uyğun olanını seçə biləcək. Xidmətin xüsusi imkanı trafikin gözlənilməz yüksəlişləri zamanı ötürmə zolağını gücləndirəcək, idarəolunan portlar isə trafikin planlaşdırılan yüksəlişi üçün hazırlığı təmin edəcək.




- **Etibarlı bağlantı**

24/7 rejimində çalışan dəstək, monitorinq xidməti və ikili bağlantı sayəsində iş prosesində vacib sayılan tətbiqlər hər zaman onlayn olacaq.

- **Rəqabətdən kənar xidmət**

"Biznesim İnternet Xətti" xidməti çərçivəsində 100%-lik ötürmə zolağı təklif olunur. Belə ki, ayrılmış simmetrik sxemlər vasitəsilə ötürmə zolağının yalnız müştəriyə məxsus olması, yükləmə sürətlərinin isə sabitliyi təmin ediləcək.

"Korporativ müştərilərimizə innovativ telekommunikasiya həlləri ilə xidmət göstərmək məqsədilə başladığımız genişmiqyaslı Şəbəkə İnteqrasiyası və Transformasiya proqramının hal-hazırda tam mərkəzindəyik" - deyə Korporativ Seqment Biznes strukturunun rəhbəri Giorgos Chatzis qeyd edib. "Xidmətlərimizin hüdudlarını genişləndirmək, Azercell-i Azərbaycanda korporativ müştərilər üçün yeganə dayaq halına gətirmək transformasiyamızın əsas tərkib hissəsidir" - G. Chatzis vurğulayıb.

Xidmətə qoşulmaq üçün business@azercell.com elektron poçt ünvanına müraciətinizi göndərə bilərsiniz.




## SERGEY LAVROV: ABŞ DOLLARI NÜFUZUNU İTİRİR



Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışında ABŞ-ın sanksiya siyasətini tənqid edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Sergey Lavrov çıxışı zamanı mövcud müqavilələr əsasında İranın dünya ölkələri ilə ticarət etmək hüququnun olduğunu bildirib. Nazirin sözlərinə görə, hər şeydən əvvəl bu ölkənin neft ehtiyatlarını sataraq gəlir əldə etmək hüququ var.

ABŞ-ın İranın neft ticarətinin qarşısını aldığını xatırladan Lavrov deyib: "Bu səbəbdən çox sayda ölkə və şirkət son dərəcə çətin vəziyyətə düşüb. ABŞ-ın İrana qarşı sərt mövqeyi ilə yanaşı, başqa ölkələrə tətbiq etdiyi sanksiyalar səbəbindən dollar qlobal nüfuzunu itirir".

Xatırladaq ki, Donald Tramp rəhbərliyi 2018-ci il mayın 8-də İranla imzalanan nüvə müqaviləsindən birtərəfli qaydada çıxdığını elan edib.

Daha sonra Tehran rəhbərliyinin neft ixracını hədəf alan ABŞ-ın sanksiyaları səbəbindən Yaponiya, Cənubi Koreya və Avropa ölkələri İrandan neft ixracını tamamilə dayandırıb.

## GÜRCÜSTANIN BAŞ NAZİRİ İSTEFA VERİB



Gürcüstanın baş naziri Mamuka Baxtadze istefa verib. "Report" agentliyinin verdiyi xəbərə görə, bu barədə hökumət başçısı sentyabırn 2-də özü məlumat yayıb.

Mamuka Baxtadze vəzifəsini tərk etməsi barədə "Facebook" sosial şəbəkəsindəki səhifəsində yazıb: "İstefa vermək barədə qərar qəbul etmişəm, belə ki, indiki mərhələdə missiyamı yerinə yetirdiyimi hesab edirəm".

Eyni zamanda, baş nazir bildirib ki, hakim Gürcü Arzusu Partiyasının üzvü olub və bundan sonra da üzvü qalacaq.

Qeyd edək ki, Mamuka Baxtadze 2018-ci ilin iyunundan Gürcüstanın baş naziri vəzifəsini tuturdu. O, 2017-2018-ci illərdə maliyyə naziri, həmin vaxta qədər isə "Gürcüstan Dəmir Yolları" SC-nin baş direktoru vəzifəsini daşıyıb.

Xatırladaq ki, ötən gün hakim Gürcü Arzusu Partiyasının qərargahında hökumət dəyişiklikləri ilə bağlı müzakirələr aparılıb.

Bununla yanaşı, yayılan qeyri-rəsmi məlumatlara əsasən, M.Baxtadzeni hazırkı daxili işlər naziri Giorgi Qaxaria əvəzləyəcək. Hakim partiyanın siyasi katibi İrakli Qaribaşvili isə daxili işlər naziri təyin olunacağı ehtimal edilir.

## RUSİYADA AVİABİLETLƏRİN QİYMƏTİ BAHALAŞACAQ



Cari ilin yekunlarında Rusiyada aviabiletlərin qiymətləri 2018-ci illə müqayisədə 9-10 faiz artacaq. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bunu Rusiya Hava Nəqliyyatı İstismarçıları Assosiasiyasının icraçı direktorunun müavini Boris Şokurov bildirib.

Direktor müavini qeyd edib ki, Rusiya aviaşirkətləri əsas gəliri adətən ilin ikinci və üçüncü rüblərində əldə edir. Birinci və dördüncü rüblərdə isə onların fəaliyyətində itkilər müşahidə olunur. Onun sözlərinə görə, bu il maliyyə nəticələrinin müsbət olacağı gözlənilmir.

Assosiasiyanın hesablamalarına görə, artıq birinci rübdə Rusiya aviaşirkətləri 45 milyard rubl itirib. Bu isə keçən ilin eyni dövrü ilə müqayisədə 32 faiz çoxdur.

Bununla yanaşı, Rusiya Ali İqtisadiyyat Məktəbinin Nəqliyyat İqtisadiyyatı İnstitutunun eksperti Andrey Kramarenko bildirib ki, bu il aviaşirkətlərin itkiləri keçən illə müqayisədə daha az olacaq, belə ki, oktyabrın 1-dən etibarən Moskva üzərindən həyata keçirilməyən daxili uçuşlar üzrə əlavə dəyər vergisi sıfıra enəcək. O qeyd edib ki, bundan başqa, aviabiletlərin dəyərinin artması inflyasiya artımından öndə gedir.

Məlumata görə, bilet qiymətləri aviasiya kerosininin bahalaşması ilə bağlıdır. Qiymətlərin artması şəraitində aviaşirkətləri dəstəkləmək üçün avqustun 1-dən etibarən kerosin qiymətlərinə məhdudiyyət tətbiq olunmağa başlanılıb. Lakin aviaşirkətlər bu mexanizmin effektiv olmadığını qeyd ediblər.

Rusiya Maliyyə Nazirliyinin mətbuat xidməti bildirib ki, neftin qiymətinin bir barrelə görə 65 dollardan çox bahalaşdığı təqdirdə Rusiya aviaşirkətləri məhdudiyyət çərçivəsində əlavə ödənişlər əldə edəcəklər.

## "TELEGRAM" ÖZ KRİPTOVALYUTASINI DÖVRİYYƏYƏ BURAXIR




"Telegram" şirkəti özünün "Gram" adlı kriptovalyutasının birinci partiyasını yaxın iki ay ərzində dövriyyəyə buraxmağı planlaşdırır. "Sputnik" informasiya agentliyinin məlumatına görə, bu barədə "The New York Times" qəzetinə şirkətin planları ilə tanış olan bir sıra sərmayədarlar açıqlama veriblər.

Sərmayədarlar sözlərinə görə, "Telegram" həmçinin dünya üzrə 200-300 milyon insanın istifadə edə biləcəyi elektron pul kisələrini də yaratmağı planlaşdırıb.

Qəzet bildirib ki, şirkət "Gram" kriptovalyutasını yeni "online" valyutaya və dünyanın istənilən nöqtəsinə pul göndərməyə imkan verən vasitəyə çevirmək niyyətindədir.

Qeyd edək ki, "Telegram" özünün kriptovalyutasını hazırlayan yeganə şirkət deyil. Bir müddət öncə dünyanın ən nəhəng pərakəndə satış şəbəkələrindən biri olan "Walmart"ın kriptovalyuta yaratmaq planlarından xəbər verilib. Bundan başqa, "Facebook" şirkəti də "Libra" adlı yeni kriptovalyutanın üzərində işləyir.

## ÇİNLİLƏR AYDA QƏRİBƏ MADDƏ TAPIBLAR



Çinin "Yutu" qurğusu Ayın əks tərəfində elmə məlum olmayan maddə aşkarlayıb. "Sputnik" informasiya agentliyinin verdiyi xəbərə görə, bu barədə məlumatı "Daily Mail" nəşri yayıb.

Bildirilir ki, mütəxəssislər sözügedən maddəni qurğunun göndərdiyi şəkillərdəki kraterlərin birini araşdırarkən aşkar ediblər. Missiyanın saytında bildirilir ki, şəkillər iyulun sonunda əldə edilib.

Qurğunun korpusunda xüsusi spektometr quraşdırılıb, o, maddənin üzərindən əks olunan işığın vasitəsilə maddələrin tərkibini müəyyən etməyə imkan verir.

Alimlər hələlik tapıntının tərkibini təyin edə bilməyiblər, lakin onun "qeyri-adi rəngə" və "gel tərkibli struktura" malik olduğunu bildiriblər.

2019-cu ilin yanvarında "Çange-4" aparatı Yerə Ayın əks tərəfinin şəkillərini göndərib. Bu şəkillər planetimizin peykinin ən yaxın məsafədən çəkilmiş görüntüləri hesab olunur. Aparat Ayın geoloji quruluşu və qrunt tərkibi barədə məlumatlar toplayacaq, həmçinin bir sıra aşağı tezlikli radioastronomik müşahidələr aparacaq.

Ayın görünməyən tərəfinin mantiyasının ilkin analizləri zamanı alimlər yüksək sıxlıqlı, çox az kalsiuma və yüksək dərəcədə dəmirə malik minerallar - olivinlər və piroksenlər aşkarlayıblar. Mütəxəssislərin fikrincə, bu maddələr öncə üst mantiyaya daxil imiş, sonradan isə meteoritlərin düşməsi nəticəsində üzə çıxıb.

## TEZ YORULMAQ ÜRƏK XƏSTƏLİKLƏRİNİN XƏBƏRÇİSİ OLA BİLƏR



Yüngül fiziki məşqlərdən yorulmaq gələcəkdə baş verə biləcək ürək xəstəliklərinin əlaməti ola bilər. "TRT" telekanalının "Medical News Today" saytına istinadən verdiyi xəbərə görə, tez yorulma ilə ürək xəstəliklərinə yaxalanma riski arasında əlaqənin öyrənildiyi tədqiqat işində iştirak edənlərin uzunmüddətli ürək sağlamlığı göstəriciləri təhlil edilib.

Tədqiqata cəlb edilən şəxslərin 10 il ərzində ürək xəstəliklərinə tutulma riskini hesablayan elm adamları 4,5 il sonra da yavaş yerimə testi ilə insanların nə qədər yorulduğunu ölçüblər.

Məlumata görə, tədqiqatçılar ilk növbədə ürək-damar sistemi xəstəliklərinə tutulma riski yüksək olan şəxslərin ürək xəstəliyi riski olmayanlara nisbətən adi məşqlərin sonunda daha tez yorulduğunu müəyyən ediblər.

Eyni zamanda, tədqiqat qrupunun üzvü Cennifer Şrak tədqiqatın nəticələrinin tez yorulan şəxslərdə gələcəkdə ürəkləri ilə bağlı narahatlıqlar yaşama riskinin digər fərdlərə nisbətən daha yüksək olduğunu bildirib.

Bununla yanaşı, Cennifer Şrak tədqiqatın tez yorulan insanların həyat tərzlərini dəyişdirməsi və ürək xəstəliklərinə qarşı diqqətli olması baxımından əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Düzgün qidalanmanın və fiziki məşqlərin sağlamlıq üçün hər sahədə əhəmiyyətini qeyd edən C.Şrak deyib: "İnsanlar eşitməkdən bezsələr də, düzgün qidalanma və məşq etmək sağlamlığın iki əsas şərtidir".

Tədqiqatçı normal çəkisini qorumağı bacaran və müntəzəm məşq edən şəxslərin həm tez yorulma probleminə həll tapa, həm də ürək xəstəliklərinə yaxalanma riskini azalda biləcəklərini vurğulayıb. ■

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 13.09.2019-cu il tarixdə saat 16:00-da keçiriləcəyi elan edilmiş "Bakı Metropoliteni" QSC üçün müxtəlif növ geyim formalarının satınalınması üzrə Açıq Tenderin vaxtı 27 sentyabr 2019-cu il tarixə saat 15:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 18 sentyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 26 sentyabr 2019-cu il saat 16:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

"Respublika" qəzetinin 16 iyul 2019-cu il tarixli 152 saylı buraxılışında dərc edilmiş Yanacaq-sürtkü materialları üzrə lot 3 "Xüsusi mayelər", lot 4 - "Texniki avadanlıqlar" və Mənzil-istismar əmlakları və təmir işləri üzrə, lot 6 - "Təsərrüfat alətləri", Lot 10 - "SMART-KART tipli elektrik sayğaclarının çəkilişi işləri" və Lot 12 - "Məişət avadanlıqları"nın satınalınmasına dair tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduğu üçün "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinin tələblərinə uyğun olaraq tenderin davamından imtina edilmişdir.

**Dövlət Sərhəd Xidmətinin Tender Komissiyası.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Bakı Şəhəri Reklam İdarəsi tərəfindən kuryer xidmətlərinin satınalınması məqsədilə keçirilmiş kotirovka sorğusunda "FAMKO KURYER VƏ KARGO" MMC qalib gəlmiş və həmin şirkətlə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

**Tender Komissiyası.**

## "Bakı Metropoliteni" QSC "B-3" stansiyasında abadlıq işləri çərçivəsində stansiyanın ərazisindən keçən avtomobil yolunun bərpa edilməsi üçün yolun hamarlanması, kiplənməsi və alt layın karbonatla düzəldilməsi işlərinin satın alınması üzrə

TƏKRAR

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/-dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**LOT-1.** "Bakı Metropoliteni" QSC-nin "B-3" stansiyasında abadlıq işləri çərçivəsində stansiyanın ərazisindən keçən avtomobil yolunun bərpa edilməsi üçün yolun hamarlanması, kiplənməsi və alt layın karbonatla düzəldilməsi işlərinin satınalınması

**İştirak haqqı - 150 manat**

*Hesabın adı: BAKI METROPOLİTENİ QSC*
*Hesab nömrəsi (İBAN):*
*AZ98AZRT38050019440010268002 AZN*
*VÖEN: 1402871431*
*Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)*
*Kod: 501361*
*VÖEN: 9900006111*
*Müxbir hesabı: AZ02NABZ01350100000000022944*
*SWİFT BİK: AZRTAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 13 sentyabr 2019-cu il saat 17:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 23 sentyabr 2019-cu il saat 16:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər.

İddiaçıların təklifləri 24 sentyabr 2019-cu il saat 16:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**"BAKI METROPOLİTENİ" QSC TENDER KOMİSSİYASI.**

## Satınalan təşkilat: "Elektron Hökumətin İnkişafı Mərkəzi" Publik Hüquqi Şəxsi

## BİLDİRİŞ

"Elektron Hökumətin İnkişafı Mərkəzi" Publik Hüquqi Şəxsi,

"Taksi xidməti"

kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 444 74 44 (daxili 3184) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 05.09.2019-cu il saat 17:00 tarixinədək qəbul olunur.

**Bakı şəhəri, Nərimanov rayonu, Atatürk prospekti 89.**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 nömrəli Respublika Psixiatriya Xəstəxanası 11 sentyabr 2019-cu il tarixdə saat 11:00 sənədlərin cildlənməsi üçün qovluqların satınalınmasının kotirovka sorğusunu keçirir.

**Ünvan:** *Sabunçu rayonu, Maştağa qəsəbəsi, Axund Şeyx Hüseyn küçəsi 155*

**Əlaqə telefonu:** *(012) 455-10-91.*

**Tender Komissiyası.**

## AZƏRBAYCAN RESPUBLİKASI ƏMLAK MƏSƏLƏLƏRİ DÖVLƏT KOMİTƏSİ YANINDA DAŞINMAZ ƏMLAKIN KADASTRI VƏ ÜNVAN REYESTRİ XİDMƏTİNİN TABELİYİNDƏ "KADASTR VƏ YERQURULUŞU LAYİHƏ-TƏDQİQAT MƏRKƏZİ" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir.**

**Lot 1.** Daşınmaz əmlakların 3 ölçülü modellərinin hazırlanmasını və nəqliyyat infrastrukturu obyektlərinin vizual rəqəmsallaşdırılmasını təmin edən avadanlıqların satınalınması

Açıq tenderdə iddiaçı qismində daşınmaz əmlakların 3 ölçülü modellərinin hazırlanmasını və nəqliyyat infrastrukturu obyektlərinin vizual rəqəmsallaşdırılmasını təmin edən avadanlıqların satışı üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı: 300 (üç yüz) manat**

*"Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" MMC*
*Hesablaşma hesabı:*
*AZ23AİİB38030019443701778107*
*VÖEN: 1302005671*
*Bank: Kapital Bankın 1 saylı Xətai filialı*
*Kod: 200071*
*Müxbir hesab: AZ37NABZ01350100000000001944*
*VÖEN: 9900003611*
*S.W.İ.F.T.BİK.: AİİBAZ2X*

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
*6. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
*7. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
*8. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
*9. Müvafiq sahədə ixtisaslı işçi heyətinin mövcudluğunu təsdiq edən sənədlər;*
*10. Tələb olunan malların ölkə üzrə satılması ilə bağlı müvafiq səlahiyyətlərə malik olduğunu təsdiq edən sənədlər;*
*11. Müqavilə üzrə işlərin icrasına cəlb ediləcək subpodratçılar barədə məlumat;*
*12. Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
*13. Tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
*14. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı. Təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Tender predmeti üzrə mallar satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 3 (üç) ay müddətində təhvil verilməlidir.

Satınalma müqaviləsinin bağlanılması barədə qərar qiymətləndirmə nəticəsində ən sərfəli sayılan təklif əsas götürülməklə iddiaçılar tərəfindən təqdim olunan qiymət və digər meyarlar əsasında qəbul ediləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 24 sentyabr 2019-cu il tarixinə qədər (saat 17:00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 02 oktyabr 2019-cu il tarixinə qədər (saat 17:00-dək) dövlət satınalmalarının vahid internet portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 03 oktyabr 2019-cu il tarixində (saat 15:00-da) açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:

Şövqi Ramiz oğlu Babayev - Tender Komissiyasının üzvü, Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzinin Sənədlərlə iş və arxiv şöbəsinin mütəxəssisi (tel.: +99412 497 69 01, faks: +99412 533 19 58, e-mail: shbabayev@emdk.gov.az).

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Radio-Televiziya Yayımı və Peyk Rabitəsi" İstehsalat Birliyi (TELERADİO İB)

TƏKRAR

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 4 lot üzrə keçirilir:**

**Lot 1:** 8 Radio-Televiziya Yayım Stansiyasının (RTYS) daxili enerji təsərrüfatının təmiri

**Lot 2:** 8 dəst müxtəlif güclü dizel-generatorun satınalınması və quraşdırılması

**Lot 3:** Qəbələ, İsmayıllı və Şəmkir RTYS-lərin elektrik təchizat xətlərinin rekonstruksiyası

**Lot 4:** Göyçay RTYS-in yeni texniki binasının tikinti işlərinin yerinə yetirilməsi və sifarişçiyə təhvil verilməsi.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar lotlar üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 300 AZN**
**Lot 2 - 300 AZN**
**Lot 3 - 300 AZN**
**Lot 4 - 500 AZN**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

*Hesabın Adı: "Teleradio" İB*
*Hesab: AZ29AZPO91015461200420100081*
*VÖEN: 9900037841*
*Bank: "Azərpoçt" MMC PFİ*
*Kodu: 691011*
*VÖEN: 9900037711*
*M/H: AZ76NABZ01350100000000094944*
*SWİFT BiK: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəlikləri olmaması haqqında müvafiq vergi orqanından arayış; (Azərbaycan Respublikasında filialı və ya daimi ofisi olmayan xarici iddiaçılardan tələb edilmir)*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. Müvafiq avadanlıq və materiallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender prosedurası "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 16.09.2019-cu il, saat 17:00 tarixinə qədər və tender təklifi ilə bank təminatı sənədlərini 24.09.2019-cu il, saat 17:00 tarixinə qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 25.09.2019-cu il, saat 11:00 tarixində açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün proseduralar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

E-şərtlər toplusunu 26.08.2019-cu il, saat 14:00 tarixindən sonra əldə edə bilərsiniz.

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC-yə İki ədəd avtoyükləyicinin alınmasına dair 07.05.2019-cu il tarixli ask.gov.az internet saytında dərc edilmiş açıq tender prosesində ən aşağı qiymət təklifi edən AZ 1129, Bakı şəh, Xətai ray, Nəsirəddin Tusi, ev 11, mənzil 36 ünvanında yerləşən "İNTERMAK GROUP" MMC şirkəti qalib gəlmişdir. Həmin müəssisə ilə 22.08.2019-cu il tarixdə 65000.00 manat məbləğində müqavilə imzalanmışdır.

Hümətova Məhəbbət Əfqan qızının adına Bakı şəhəri, Pirallahı rayonu, Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi, döngə 5, ev 9, mənzil 2-yə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

"Metaleks" MMC (Bakı şəhəri, Nərimanov rayonu, Arif Heydərov küçəsi, ev 2, mənzil 6) müflis elan olunması ilə əlaqədar 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə ərizə ilə müraciət etmişdir. e-2-2(82)-497/2019 saylı iqtisadi iş sədrlik edən hakim, xanım Leyla Əliyevanın icraatında olmaqla məhkəmə baxışı 10.09.2019-cu il tarixə saat 10:30-la təyin edilmişdir. Debitor və kreditorlar 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsinə müraciət edə bilərlər. Ünvan: AZ1040, Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsi. Əlaqə telefonu: (012) 452-53-51.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Viravul kənd sakini Fərəcov Hacırza Səməd (Səmid) oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 591; KOD 80200048) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Türkəkəran kənd sakini Cəfərov Kamil Fətta (Fəttah) oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 251 A; KOD 80219028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 20 dekabr 1997-ci il tarixli 12 nömrəli qərarı ilə Kərgəlan kənd sakini Cavadov Cavad Rza oğluna verilmiş Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN 0057 A; KOD 80212018) itdiyi üçün etibarsız sayılır.

Ağcabədi rayonu, Cəfərbəyli kənd sakini Cəfərov Nurəddin Əvəz oğlu və ailə üzvlərinin xüsusi mülkiyyətində olan və həmin kənddə yerləşən 4,26 ha torpaq sahəsinə verilmiş JN 135, KOD 60804038 olan "Torpağa mülkiyyət hüququna dair" Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

DTXK-nın Şabran rayon şöbəsi tərəfindən Güləh kəndində Novruzova Şahbəyim Səlim qızının adına verilmiş JN 120 (Kod 30402028) saylı Torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Satınalan təşkilat: Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti. BİLDİRİŞ. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Astara şəhər Uşaq Musiqi məktəbinin və Yasamal rayonu, Ə.Bakıxanov adına 6 nömrəli Uşaq Musiqi məktəblərinin əsaslı təmiri, həmçinin Şamaxı şəhərində yerləşən Şaxəndan türbəsi və Gədəbəy şəhərinin 3 kilometrliyində yerləşən "Kilsə"nin bərpası obyektləri üçün layihə-smeta sənədlərinin hazırlanması üzrə kotirovka sorğusu üsulu ilə satınalma həyata keçirir. Maraqlanan təşkilatlar (012) 4932204 nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 05 sentyabr 2019-cu il, saat 17:00 tarixinədək qəbul olunur. Ünvan: AZ 1000, Bakı şəhəri, Səbail ray., Ü.Hacıbəyli küç. 84.

## AZƏRBAYCAN DÖVLƏT NEFT və SƏNAYE UNİVERSİTETİ 2019-ci ildə "İnventarın alınması" maddəsi ilə əlaqədar

TƏKRAR

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Tenderdə iştirak etmək istəyən təşkilatlar lot üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**Tender 1 LOT "İnventarın alınması"**

**İştirak haqqı : 500 manat**

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti :*
*VÖEN: 1400196861*
*Bakı ş. Az 1010 Azadlıq pr. 20*
*Bank rekvizitləri:*
*Kapital Bank ASC 28 may*
*Kod: 200123 VÖEN 9900003611*
*M/H: AZ37NABZ01350100000000001944*
*H/hesab: AZ76AİİB38060029441210456112*
*SWİFT kod. AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (arayışların əslləri və tarixləri tender elanından sonra olmalıdır);*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*10. Digər sənədlər (Lisenziya, Şəxsiyyət vəsiqəsi və s.).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcumə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 20 sentyabr 2019-cu il saat 17:00-a qədər, təklif və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 sentyabr 2019-cu il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifi 01 oktyabr 2019-cu il tarixdə, saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəs ilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

**TENDER KOMİSSİYASI.**

## AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN SUMQAYIT ŞƏHƏR SƏHİYYƏ ŞÖBƏSİ

*2019-cu il üçün tələb olunan "Mətbəə xərcləri"nin satınalması üzrə*

TƏKRAR

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 LOT üzrə aparılır:**

**LOT-1.** "Mətbəə xərcləri"

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Sumqayıt şəhəri, Heydər Əliyev prospekti-7 ünvanından ala bilərlər.

**İştirak haqqı:**

**LOT-1 – 50 manat**

Tenderlə əlaqədar məlumat almaq üçün maraqlananlar əlaqələndirici şəxslərə müraciət edə bilərlər:

*Təşkilat: Sumqayıt Şəhər Səhiyyə Şöbəsi*
*Hesab: AZ82CTRE00000000000002126631*
*VÖEN: 2900381351*
*Bank: DXA*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesabı:*
*AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. BİK CTREAZ22*
*Büdcə səviyyəsinin kodu-7y*
*Büdcə təsnifat kodu 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidir:

*-tenderdə iştirak etmək üçün ərizə;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*-tender təklifi qiymətinin 1 %-i həcmində bank zəmanəti (zərflərin açıldığı gündən sonraazı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhtəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*-Son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-İddiaçının son bir ildə maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*-İddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-Müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*-İşləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunlalıdır (xarici dilində olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 sentyabr 2019-cu il saat 17.00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 sentyabr 2019-cu il saat 17.00-a qədər Səhiyyə Şöbəsinə (ünvan: H.Əliyev prospekti-7) təqdim etməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. Təklif zərfləri 27 sentyabr 2019-cu il saat 11.00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilər.

**Əlaqələndirici şəxs: Gülnar Süleymanova**
**Telefon: (018) 65-5-15-31**
**Ünvan: Sumqayıt şəhəri, Heydər Əliyev prospekti-7.**

**TENDER KOMİSSİYASI.**

## ALLAH RƏHMƏT ELƏSİN

**"Respublika" qəzetinin baş redaktoru professor Teymur Əhmədov və redaksiyanın kollektivi Rəşad Məcidə, əzizi**

**KƏRƏM SƏFƏROVUN**

**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

**"Respublika" qəzetinin kollektivi Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, yazıçı**

**NAZİM İBRAHİMOVUN**

**vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.**

**Baş redaktor Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi Müşfiq MİRZƏ**

● **Çapa imzalanmışdır 02.09.2019**